QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 016 (5736) **25 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# İlham Əliyev: "Aqrar İnkişaf Könüllüləri hərəkatının çox böyük gələcəyi olacaq"

*Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib*




Səh 2

10

**Pulsuz müalicə oluna bilməyən Ermənistan vətəndaşı özünü yandırmaq istəyib**



6

**"Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır"**



7

**"Aslan İsmayılov. Yalan Anatomiyası" kitabı təqdim olunub**



# İlham Əliyev: "Aqrar İnkişaf Könüllüləri hərəkatının çox böyük gələcəyi olacaq"

*Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib*

***Yanvarın 24-də Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ərazidə inzibati-laboratoriya binası, yeməkxana, toxum saxlanma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satış mərkəzi yaradılıb. Burada ümumilikdə, 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev institutun binasının rəmzi açılışını bildirən lenti kəsdi.

İnstitutun laboratoriyalarında ən müasir cihaz və avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlərin həyata keçirilməsinə imkan verir. Burada, həmçinin virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkili üçün biotexnologiya laboratoriyası da qurulub.








Qeyd edək ki, bu institut Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 6 may tarixli qərarına əsasən tərəvəz, bostan və kartof bitkilərinin seleksiyası, toxumçuluğu, aqrotexnikası, bitki mühafizə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi məqsədilə yaradılıb. "Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq bu toxumçuluq kompleksi inşa olunub.

Prezident İlham Əliyevə Elektron kənd təsərrüfatı layihəsi və Aqrar İnkişaf Könüllüləri layihəsinin məqsədi barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, bu layihənin həyata keçirilməsində məqsəd aqrar sektorun inkişafına ictimai dəstək göstərmək, aqrar sahədə könüllü cəmiyyəti formalaşdırmaqdır. Bununla da, gələcəkdə bu sahədə fəaliyyət göstərəcək ixtisaslaşmış kadrların yaranmasına təkan vermək, innovativ texnologiyaların təbliği ilə bu sahənin dayanıqlı inkişafına nail olmaqdır.

> "Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın"

Sonra dövlətimizin başçısı Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Könüllülərdən Sarvan Cəbrayılzadə və Rübabə Yusifova çıxış edərək bildiriblər ki, bu hərəkat aqrar sahədə inkişafa dəstək məqsədi daşıyır: "Biz artıq 35 regionda təşkilatlana bilmişik. Biz dörd aydır ki, fəaliyyətə başlamışıq. Bu qısa müddətə baxmayaraq, sıralarımıza 600 gənci cəlb edə bilmişik. Üç il ərzində 10 mindən çox gənci öz sıralarımıza cəlb etməyi nəzərdə tutmuşuq. Bizim könüllülərimiz Dövlət Aqrar İnkişaf Mərkəzlərində (DAİM) fəaliyyət göstərirlər. DAİM-lərdə biz fermerlərin yanında oluruq, onlara dəstək veririk, eyni zamanda, özümüz də aqrar sahədə təcrübə qazanırıq. Əminik ki, Sizin xeyir-duanızla, dəstəyinizlə biz daha böyük nailiyyətlərə çata bilərik. Biz könüllülər olaraq həm də fəal maarifləndirmə işi aparırıq. Könüllülərimiz regionlarda fermerlərə aparılan islahatların mahiyyəti barədə məlumat verirlər. Nəticədə fermerlərimiz bu islahatlarla tanış olurlar. Həmçinin könüllülərimiz aqrar sahədə müəyyən təcrübə qazanırlar."

Daha sonra Prezident İlham Əliyev çıxış edərək bildirib ki, Azərbaycanda könüllülərin sayı artır və bu, çox sevindirici haldır:

"Çox şadam ki, Azərbaycanda Aqrar İnkişaf Könüllüləri hərəkatı başlayır. Əminəm ki, bu hərəkatın çox böyük gələcəyi olacaq. Ümumiyyətlə, Azərbaycanda könüllülərin sayı artır və bu, çox sevindirici haldır. Bildiyiniz kimi, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət" mərkəzlərində başlamışdır və çox geniş vüsət almışdır. Bu günə qədər minlərlə könüllü "ASAN xidmət"də fəaliyyət göstərmiş və indi müxtəlif vəzifələrdə uğurla çalışır. Könüllülər bizə, eyni zamanda, mötəbər beynəlxalq tədbirlərin keçirilməsində yardımçı olublar, xüsusilə Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında. Bu Oyunların hazırlanmasında və keçirilməsində könüllülərin çox böyük zəhməti, payı olub. Bildiyiniz kimi, mən onların hər birini fəxri diplomlarla təltif etmişəm. Bu gün aqrar sahədə də könüllülər öz sözünü deməyə başlayır. Mən bu təşəbbüsü çox alqışlayıram. Çünki bölgələrdə yaşayan gənclər bu işlərə qoşularaq aqrar sahədə böyük uğurlara nail ola bilərlər.

Ardı Səh. 3

# İlham Əliyev: "Aqrar İnkişaf Könüllüləri hərəkatının çox böyük gələcəyi olacaq"

*Prezident İlham Əliyev Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında iştirak edib*



Əvvəli Səh. 2

Aqrar sahə bizim üçün strateji sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın.

Bu gün biz Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında bu məsələləri önə çəkmişik. Bu gün biz bu gözəl müəssisənin timsalında aqrar sahədə aparılan işləri görürük. Çünki bu institut 1960-cı illərdə yaradılmışdır və demək olar ki, son illərdə fəaliyyət göstərmirdi, bura dağınıq bir yer idi. 2016-cı ildə bu institutun müasir səviyyədə qurulması üçün müvafiq Sərəncam imzalanmışdır, işlər başlamışdır və indi 30 hektar ərazidə ən müasir mərkəz yaradılıbdır - istixanalar, institutun gözəl binası, laboratoriyalar. Bu institutun fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki ilk dəfə olaraq Azərbaycanda toxumçuluq istixanaları yaradılır. Hazırda bizdə istixanaların sayı çoxdur və indi tərəvəzçiliyə böyük maraq var. Toxumçuluq istixanalarının yaradılması isə ancaq bu gündən başlayır və bu mərkəz ölkəmizin hər bir bölgəsinə dəstək olacaq.

Tərəvəzçilik bizim kənd təsərrüfatının ənənəvi sahəsidir, böyük gəlir gətirən sahədir. Yəqin siz bilirsiniz ki, kənd təsərrüfatı məhsulları arasında bizə ən çox gəlir gətirən pomidor ixracıdır. Fermerlər bu işlə böyük həvəslə məşğuldurlar və digər tərəvəzlərin yetişdirilməsi çox sürətlə gedir. Biz ildən-ilə istehsalı artırırıq. Bu institutun fəaliyyəti məhsuldarlığı böyük dərəcədə artıracaq, eyni zamanda, xaricə gedən valyutanın qarşısını müəyyən qədər alacaq. Çünki bu gün bütün toxumlar xaricdən gətirilir və onların alınmasına böyük məbləğdə vəsait gedir. Bundan sonra toxumların əhəmiyyətli hissəsi ölkəmizdə yetişdiriləcək, beləliklə, valyuta gətirəcək, məşğulluq, məhsuldarlıq artacaq və biz özümüzü bundan sonra tam təmin etməklə xarici bazarlara daha böyük ixrac imkanlarımızla çıxacağıq. Məqsədimiz bundan ibarətdir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Bu sahədə, sənaye sahəsində də müsbət meyillər var. Bildiyiniz kimi, bu yaxınlarda Sumqayıtda karbamid zavodu açılmışdır. Bu, qeyri-neft sektorunda həyata keçirilən ən böyük layihədir. Biz özümüzü azot gübrələri ilə tam təmin edəcəyik. Eyni zamanda, təqribən 150-160 milyon dollar dəyərində məhsul ixrac edəcəyik. Azərbaycanda pivot suvarma sistemləri, pestisidlər zavodları fəaliyyət göstərir. Yəni, sənaye istehsalı da kənd təsərrüfatını dəstəkləyir, ona lazımi şərait yaradır. Əlbəttə, sizin kimi gənclərin bu işlərdə fəal iştirakı hesab edirəm ki, uğurun əsas şərti, əsas amili olacaq.



Mən çox şadam ki, Azərbaycan gəncləri aqrar sahəyə çox böyük maraq göstərirlər. Bu, Azərbaycanda doğrudan da bir yenilikdir. Əvvəllər hesab olunurdu ki, aqrar sahə o qədər də cəlbedici, o qədər də maraqlı deyil, hətta hesab olunurdu ki, o qədər də gəlir gətirən sahə deyil. Ancaq baxır sən buna necə yanaşırsan. Əgər dövlət kənd təsərrüfatına dəstək verirsə, həm gəliri olacaq, həm maraqlı olacaq, həm də ki, özünü innovasiyalarla təmin edəcək.



Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var - subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Texnikalar alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur.

İnstitutun binasında mənə Elektron Kənd Təsərrüfatı layihəsi təqdim edilmişdir. Yəni, fermerlər üçün tam yeni şərait yaradılır və beləliklə, kənd təsərrüfatı çox cəlbedici sahə olacaq. Azərbaycan vətəndaşları görəndə ki, sizin kimi savadlı, bilikli gənclər bu sahəyə maraq göstərirlər, əminəm ki, maraq daha da böyük olacaq.

Mən çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl institutun yenidənqurmadan sonra açılışında iştirak edirik. Onu da bildirməliyəm ki, hazırda Kənd Təsərrüfatı Nazirliyində və digər dövlət qurumlarında struktur islahatları aparılır. Bu islahatların bir məqsədi var ki, biz işimizi daha da yüksək səviyyədə quraq. Onu da bildirməliyəm ki, mövcud strukturlarda, ixtisar olunan strukturlarda çalışan vətəndaşlar işlə təmin olunacaqlar. Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın. Yəni, o müəssisələrdə, o xidmətlərdə, agentliklərdə çalışan vətəndaşlar bilsinlər ki, onların məşğulluğu daim diqqət mərkəzindədir."

# Aqrar sektor - uğurlu layihələr, real nəticələr...

## *İlham Əliyev: "Əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir"*

***Hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti onun etibarlı ərzaq təminatıdır. Elə bu səbəbdəndir ki, Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair tədbirlər həyata keçirməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 dekabr tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsinə dair" imzaladığı Fərmanı, məhz həyata keçirilən aqrar islahatların mühüm tərkib hissəsidir. Fərmana əsasən, bundan sonra kənd təsərrüfatı texnikası və damazlıq heyvanlara tətbiq olunan güzəştlər bütün təchizatçı şirkətlərə şamil ediləcək. Texnika və damazlıq heyvan satışı "Aqrolizinq" tərəfindən deyil, təchizatçı şirkətlər tərəfindən həyata keçiriləcək. Nəticədə, kənd təsərrüfatı texnikası bazarında rəqabət güclənəcək, qiymətlərdə azalma müşahidə olunacaq.***









Fərmana görə, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların lizinqə götürülməsi, artıq "Aqrolizinq"də deyil, müvəkkil banklarda rəsmiləşdiriləcək. Kənd təsərrüfatı texnikasının lizinqi zamanı dövlət texnikanın ilkin dəyərinin 40 faizini subsidiya şəklində ödəyəcək. Fermer 20 faiz ilkin ödəniş edəcək, qalan 40 faiz isə fermerə müvəkkil bank tərəfindən kredit şəklində veriləcək. Müvəkkil banklar tərəfindən tətbiq edilən maksimum 7 faiz olan kredit faizi dövlət tərəfindən subsidiyalaşdırılacaq.

### Azərbaycanda analoqu olmayan dəstək

Son 15 ildə aparılan böyük həcmli kompleks işlər sayəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə daxil olub. Bu inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müstəqilliyimizin, təhlükəsizliyimizin, tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın təmin olunmasında müəyyən edilən siyasi kurs dayanır. Belə ki, dövlətimizin başçısının son 15 ildə qəbul etdiyi siyasi qərarlar kənd təsərrüfatının inkişafı ilə bağlı qabaqcıl tənzimlənmə və dəstək mexanizmlərinin ölkəmizdə də geniş tətbiq olunmasına real zəmin yaradıb.

Belə ki, dövlətimiz tərəfindən kənd təsərrüfatı ilə məşğul olanlara, heç bir ölkədə Azərbaycanda olduğu kimi, bu qədər dəstək olmur.

İntensiv texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi, aqroparklar, iri fermer və bağçılıq təsərrüfatlarının, müasir heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin fəaliyyətə başlaması, meliorativ tədbirlər nəticəsində, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi bu sahədə iqtisadi artımı sürətləndirib. Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 332 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 113 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq 6 aqropark fəaliyyətə başlayıb, cari ilin sonunadək daha 12 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Qeyd edilənlər nəzərə alınaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə isə orta hesabla 4,5 faizdən çox artım gözlənilir. Qarşıdakı dövr üçün qeyd edilən proqnoz göstəricilərinin reallaşdırılmasına 2019-cu ilin dövlət büdcəsində aqrar sektorun inkişafı məqsədilə nəzərdə tutulan xərclərin cari illə müqayisədə 10,5 faiz artırılaraq, 835 milyon manat səviyyəsində çatdırılması da öz müsbət təsirini göstərəcək. Bu isə, kənd təsərrüfatı üzrə istehsalın və ixracın artırılmasında uğurların şərtləndirilməsi deməkdir.

Prezident İlham Əliyev regionlara səfərləri zamanı keçirdiyi müşavirələrdə də dövlət tərəfindən verilən dəstəkdən danışarkən, bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur: "İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq, görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa".

Beləliklə, göstərilən faktlar, onu bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütün sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da, həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə, ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Təsadüfi deyil ki, elə Prezident İlham Əliyev çıxışlarında ənənəvi olan sahələrin uğurla inkişaf etdirildiyini də bildirib: "Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı... Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir".

Bütün bu reallıqlar onu deməyə əsas verir ki, dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı görülən işlərin sürəti, bundan sonra daha da artırılacaqdır. Çünki kənd təsərrüfatının inkişaf etdirilməsi, dövlətin iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevrilməsinə stimul verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

# Milli dəyərlərimizi yaşadan Azərbaycanın Birinci Xanımı

*Mehriban xanım Əliyevanın "Üzeyir Hacıbəyli" fəxri medalına layiq görülməsi milli-mənəvi dəyərlərimizə olan qayğısının məntiqi nəticəsidir*

***Heydər Əliyev Fondu fəaliyyətə başladığı zamandan saysız-hesabsız layihələri reallaşdırıb, təhsil, səhiyyə və digər sahələrdə ciddi islahatların aparılmasına öz töhfəsini verib. Heydər Əliyev Fondu ölkəmizin dünyada təbliği və zəngin dəyərlərimizin tanıdılması istiqamətində yorulmaz fəaliyyət göstərib.***

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti vətənsevərliyə, iradəyə və qüdrətə köklləndiyindən, qarşısına qoyduğu məqsədlər miqyası ilə diqqəti cəlb edib. Ulu Öndər Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyaların reallaşmasına dəstək verib. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin təbliği və inkişafı istiqamətində həyata keçirilən nəhəng layihələrin müəllifinə də çevrilib. Məhz Onun xidmətləri sayəsində muğam sənəti YUNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilib. Bu siyahı İçərişəhər Tarixi-Memarlıq Kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, Azərbaycan xalçaları, milli aşıq sənəti, həmçinin, Novruz bayramı və s. ilə davam etdirilib. Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa olunub, "Qarabağ xanəndələri" musiqi albomu nəşr edilib, muğam televiziya müsabiqələri keçirilib.

Heydər Əliyev Fondu bir çox beynəlxalq musiqi festivallarının da təşkilatçısıdır. Bu sırada Qəbələ Beynəlxalq Musiqi Festivalı öz möhtəşəmliyi və əhatə dairəsinin genişliyi ilə fərqlənir. "Eurovision-2011" Beynəlxalq Mahnı Müsabiqəsində qalib gələn Azərbaycan Heydər Əliyev Fondunun xidmətləri sayəsində 2012-ci ildə 57-ci dəfə keçirilən müsabiqəni uğurla reallaşdırdı, Qərb ilə Şərqin qovuşuğunda yerləşən ölkəmiz bir daha dünyanın diqqət mərkəzinə çevrildi.

Heydər Əliyev Fondunun beynəlxalq əlaqələrinin uğurlarıdır ki, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 100 illik yubileyləri YUNESKO səviyyəsində qeyd olundu, xalq artisti, bəstəkar Rafiq Babayevin yaradıcılığını əhatə edən musiqi albomu hazırlandı, dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahovun Parisdə fərdi sərgisi təşkil edildi. Fransanın sənət nümunələrinin toplandığı "Fransız inciləri" kolleksiyası Bakıda nümayiş olundu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtda Müasir İncəsənət Muzeyi açıldı, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyətə başladı.

Mədəni irsin, maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlər göstərən Mehriban xanım Əliyeva Azərbaycan milli dəyərlərinin təbliğində dünya sərhədlərini asanlıqla keçə bilib. Sərhədsiz Azərbaycan dünyasını yaradıb.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə musiqi sənətimizin yaşaması və gələcək nəsillərə ötürülməsi ilə bağlı nəşr etdirdiyi kitablar da milli-mənəvi irsimizə yüksək münasibətin olması ilə yanaşı, təbliği istiqamətində əhəmiyyətlidir. Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan xalçaları" kataloqunun nəşri, "Muğamı yaşadanlar" adlı bukleti, "Ömür salnaməsi" və s. Azərbaycanın musiqi mədəniyyətinə olan diqqətdir. Eləcə də, keçən əsrin əvvəllərində, ilk dəfə lentə alınan muğamlardan tutmuş 2007-ci il televiziya muğam müsabiqəsinin qaliblərinin çıxışlarına qədər 260 video və audio materiallar MP3 formatında 125 diskdən ibarət 5 albomda toplanıb. Burada təmsil olunan ustad və gənc xanəndələrin yaradıcılığı, muğam dəstgahları və digər əsərlər, ilk dəfədir ki, bütün halda qədim muğam irsimizin dolğun



Mehriban xanım Əliyevanın təşəbbüsü ilə musiqi sənətimizin yaşaması və gələcək nəsillərə ötürülməsi ilə bağlı nəşr etdirdiyi kitablar da milli-mənəvi irsimizə yüksək münasibətin olması ilə yanaşı, təbliği istiqamətində əhəmiyyətlidir. Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan xalçaları" kataloqunun nəşri, "Muğamı yaşadanlar" adlı bukleti, "Ömür salnaməsi" və s. Azərbaycanın musiqi mədəniyyətinə olan diqqətdir.

mənzərəsini yaradır.

Bütün bu görülən işlərlə yanaşı, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin birgə layihəsi çərçivəsində "Muğam haqqında əlyazmalar toplusu" da nəşr edilib. Topluya Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılan musiqiyə həsr olunmuş əlyazmalar daxildir. 3 kitabdan ibarət topluya yeddi əsər daxil edilib. 1-ci kitab "Behcətür-ruh"dur. Müəllifin fars dilində yazdığı və musiqi elmi haqqında bir risalə kimi təqdim etdiyi kitabda musiqiyə dair dəyərli məlumatlar yer alıb. Əsərin Azərbaycan, İran, İngiltərə, Rusiya və başqa ölkələrin əlyazma xəzinələrində saxlanılan və bir-birindən fərqlənən nüsxələri, uzun müddətdir ki, mütəxəssislər və muğamsevər oxucular üçün qiymətli məlumat mənbəyinə çevrilib. 2-ci kitab "Musiqi haqqında risalələr" adlanır. Bu kitaba 5 risalə daxildir. Məşhur Azərbaycan alimi Mir Möhsün Nəvvaba məxsus ilk risalənin XIX əsrin sonlarında yazıldığı güman edilir. Risalənin mətni cədvəllər əsasında izahla müşayiət olunur. Musiqi elminin əsaslarından bəhs edən risalələrdə muğamın pərdələri və şöbələrinin bürclərə, planetlərə, ilin dörd fəslinə nisbət verilməsi haqqında məlumatlar cədvəllərlə göstərilib, ritmlərin, çalğı alətlərinin öyrənilməsinə fəsillər ayrılıb. "Muğam üstündə oxunan şeirlər" adlanan 3-cü kitabda Pirinin, Hüdayinin, Yunus İmrənin, Zakirin, Dərviş Osmanın, Qasiminin, Əşrəf oğlu Ruminin, Əhmədin və digər məşhur Osmanlı türk şairlərinin şeirləri toplanılıb. Heydər Əliyev Fondunun bu layihəsi mədəniyyətimizə növbəti töhfə oldu. Bu nəşr bir daha Azərbaycan muğam sənətinin qədim tarixi və bu tarixi yaşadan- yaradan sənətkarlarla tanışlıq imkanı verir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə 2005-ci ildə Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Birinci Muğam Müsabiqəsi də keçirilib. 2008-ci ildə dahi bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş "Üzeyir dünyası" layihəsi işıq üzü görüb. Həmin nəşrə "Ömür salnaməsi", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərlər" kitabları, "Leyli və Məcnun", "Koroğlu" operaları və "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir. Bunlardan əlavə, 2009-cu ildən etibarən, ənənəvi olaraq, bir çox ölkələrdən dünya şöhrətli musiqiçiləri bir araya toplayan Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təşkil edilir. 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 1945-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağ-qara formatda çəkilmiş, Azərbaycan kino sənətinin əfsanəsi olan "Arşın mal alan" filmi bərpa edilərək, rəngli versiyası hazırlanıb. Azərbaycan musiqisinə, Üzeyir dünyasına həsr olunan tədbirlər, gerçəkləşən layihələr böyük rəğbət və məhəbbətlə qarşılanır. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmiş dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi, görkəmli musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin zəngin irsinin qorunub-saxlanılması və gələcək nəsillərə çatdırılmasına verdiyi əvəzsiz töhfələrə görə, Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edilib. Xatırladaq ki, bu, "Üzeyir Hacıbəyli" fəxri medalının ilk nüsxəsidir.

Mehriban xanım Əliyevanın "Üzeyir Hacıbəyli" fəxri medalına layiq görülməsi onun milli-mənəvi dəyərlərimizə və mədəniyyətimizə xidməti kimi qiymətləndirilir. Azərbaycan mədəniyyətinin hamisi olaraq öz töhfələrini, ardıcıl olaraq, əzmkarlıqla təqdim edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "The Jerusalem Post": İsrail-Azərbaycan strateji tərəfdaşlığı möhkəmlənir və genişlənir

***Məlum olduğu kimi, İsrailin müdafiə sənayesi çox cəhətdən birinci olması ilə fərqlənir. Ən müasir silahlar istehsal edən şirkətlərdən biri də İsrail Müdafiə Ordusu üçün pilotsuz uçuş aparatları istehsal edən "Elbit Systems" şirkətidir. Bir neçə gün bundan əvvəl məlum olub ki, "Elbit Systems" şirkəti Azərbaycana ən müasir pilotsuz uçuş aparatı - uzaq məsafədə yerləşən hədəflərə dəqiq taktiki zərbələr endirməyə imkan verən "SkyStriker" markalı "kamikadze" satıb. Beləliklə, Azərbaycan İsraildə istehsal edilmiş ən müasir pilotsuz uçuş aparatı almış ilk və hələlik yeganə xarici ölkədir.***

AZƏRTAC xəbər verir ki, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qutun İsraildə çıxan nüfuzlu ingilisdilli nəşri olan "The Jerusalem Post" qəzetində dərc olunmuş "İsrail-Azərbaycan strateji tərəfdaşlığı möhkəmlənir və genişlənir" sərlövhəli məqaləsi bu mövzuya həsr edilib.

Məqalə müəllifi vurğulayır ki, Stokholm Beynəlxalq Sülh Problemlərinə dair Tədqiqatlar İnstitutunun məlumatına görə, 2017-ci ildə Azərbaycan İsraildən alınmış silahların dəyərinə görə üçüncü ən böyük ölkə olub (137 milyon dollar). Baş nazir Binyamin Netanyahu 2016-cı ilin dekabrında Bakıda rəsmi səfərdə olarkən bildirib ki, o vaxta qədər Azərbaycan İsraildən 5 milyard dollarlıq silah alıb.

Arye Qut vurğulayır: "Hazırda İsrail dövləti ilə Azərbaycan Respublikası arasında qarşılıqlı etimada əsaslanan tərəfdaşlıq və əməkdaşlıq münasibətləri dünyanın əksər ölkələri üçün ideal modeldir. Bu ölkələr və onların xalqları ən çətin vaxtlarda bir-birinin yanında olub və mühüm məsələlərdə həmişə bir-birini dəstəkləyib. Bu möhkəm əlaqələrin əsas səbəblərindən biri insan amilidir - azərbaycanlılarla bu ölkədə yaşayan yəhudi icması arasında qədimdən mövcud olan sıx qardaşlıq və dostluq münasibətləri".

İsrailli ekspertin fikrincə, bir sıra xalqlardan fərqli olaraq azərbaycanlılar yəhudiləri heç vaxt əcnəbi hesab etməyiblər. Arye Qut yazır: "Əslən Azərbaycandan olan yəhudilər artıq neçə ildir ki, Azərbaycan ilə İsrail arasında strateji iqtisadi və geosiyasi tərəfdaşlığın formalaşmasına və möhkəmlənməsinə kömək edirlər. Azərbaycanda yaşayan yəhudilər heç vaxt təqiblərə, təhqirlərə, alçaldılmağa, talanlara və ya antisemit hərəkətlərə məruz qalmayıblar. Beləliklə, iki dövlət arasında praktiki olaraq həyatın bütün sahələrində münasibətlər yetərincə yüksək siyasi etimad səviyyəsindədir".

Ekspertin sözlərinə görə, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionuna nəzər salanda asanlıqla görmək olar ki, İsrailin strateji tərəfdaşı olan Azərbaycan çox mürəkkəb geosiyasi regionda yerləşir. Lakin Cənubi Qafqazın bu mürəkkəb geosiyasi labirintinə baxmayaraq Azərbaycan özünün çoxvektorlu və ölçülüb-biçilmiş xarici siyasətini yetərincə uğurlu şəkildə həyata keçirir.

Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli nəşri olan "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsində



yazır: "Verilən məlumata görə, İsrailin "Israel Aerospace Industries" şirkəti keçən il Azərbaycana "Harop" adlı pilotsuz uçuş qurğusu satıb. Azərbaycan heç kəsdən gizlətmir ki, bu aparatdan özünün ayrılmaz tərkib hissəsi olan, hazırda Ermənistan Respublikası tərəfindən işğal edilmiş Dağlıq Qarabağda yerdəyişmələri müşahidə etmək məqsədilə istifadə olunacaq. İsrail ilə Azərbaycan arasında hərbi strateji tərəfdaşlıq daim fəal surətdə inkişaf edir və möhkəmlənir. Son zamanlar İsrailin bəzi KİV-ləri İsraildəki erməni lobbisinin nümayəndələrinin təsiri altında İsrail-Azərbaycan hərbi əməkdaşlığında guya "problemlər yaranması" barədə yalan informasiya yaymağa çalışırlar.

2016-cı ilin məlum aprel hadisələrindən sonra Azərbaycan Silahlı Qüvvələrinin çevik və uğurlu əks-hücumu dövründə erməni tərəfin müdafiə xətti məhv edildi və Azərbaycan ordusu bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini erməni işğalından azad etdi. Bu hadisələrdən dərhal sonra erməni KİV-lərində real antiisrail isteriyası müşahidə olunur, antisemit və antiisrail ruhlu məqalələr dərc edilirdi. Hətta İsraildəki erməni icması Azərbaycan-İsrail tərəfdaşlığına qarşı mitinqlər keçirirdi".

Qutun fikrincə, iki ölkə arasında dəyəri 5 milyard dollara yaxın hərbi sazişlərin imzalanması nəticəsində Azərbaycan İsraildən ən müasir hərbi texnologiyalar ala bilib. Arye Qut yazır: "Regiondakı bəzi dövlətlər, xüsusən Azərbaycan torpaqlarının 20 faizinin işğalını 27 il ərzində davam etdirən təcavüzkar Ermənistan terror təhdidlərinə qarşı mübarizə və təhlükəsizlik məsələlərində Azərbaycan Respublikası ilə İsrail dövləti arasında əməkdaşlığa son qoyulmasını istəyir. İsrail dövləti Azərbaycanın dostu, həm iqtisadi və siyasi, həm də təhlükəsizlik məsələləri üzrə onun strateji tərəfdaşıdır".

Arye Qut İsrail-Azərbaycan hərbi əməkdaşlığının Ermənistan tərəfindən tənqid edilməsi mövzusuna toxunaraq vurğulayır ki, Azərbaycan və İsrail öz dostlarını və tərəfdaşlarını üçüncü ölkələrin mövqeyindən asılı olmayaraq özləri seçir, hərbi-texniki sahədə strateji əməkdaşlığın və tərəfdaşlığın səviyyəsini özləri müəyyən edir.

İsrailli ekspert Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi mövzusuna toxunaraq yazır ki, Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində etnik təmizləmələr aparıb, bu əməliyyatların ən qeyri-insani forması Xocalı şəhərində həyata keçirilib.

Arye Qut yazır: "Erməni silahlı dəstələri 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində insanlığa qarşı dəhşətli cinayət - Azərbaycanın dinc mülki əhalisinə qarşı soyqırımı aktı törətdilər. Erməni silahlı dəstələrinin vəhşiliyi nəticəsində 613 nəfər qətlə yetirildi, 487 adam əlil oldu, aralarında qocalar, qadınlar və uşaqlar da olmaqla, 1275 dinc sakin əsir düşdü, təsvirəgəlməz işgəncələrə, təhqirlərə və alçaldılmağa məruz qaldı. Xocalı şəhərinin mülki əhalisinin qəsdən kütləvi şəkildə məhv edilməsinin yalnız bir səbəbi vardı - onlar hamısı azərbaycanlı idi. Azərbaycan və onun xalqı misli görünməmiş işgəncələrlə üzləşdi. Xocalı şəhərində törədilənlər Azərbaycan ərazilərinin işğalının və etnik təmizləmələrin, qəddarlığı ilə şok doğuran vahimə və qorxu hissi yayılmasının növbəti mərhələsi oldu. Bu, təkcə bir nəslin faciəsi deyil, bəşər tarixində ən dəhşətli cinayətlərdən biridir".

Lakin Azərbaycan xalqının iradəsini qırmaq məqsədilə törədilən Xocalı soyqırımı bu niyyətinə çatmadı, azərbaycanlıların başqa xalqlara humanist və tolerant münasibətini dəyişdirə bilmədi. Azərbaycan xalqı sıx birləşmiş halda öz inkişaf yolunu inamla davam etdirdi.

Qutun fikrincə, bu danılmaz bir tarixi faktdır ki, Avrasiyada heç bir başqa ölkənin İsrail ilə əlaqələri İsrail-Azərbaycan əlaqələrindən daha sıx və ya səmimi deyil. İsrailli ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli nəşri olan "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: "İki ölkə arasında münasibətlər xüsusən ona görə təəccüb doğurur ki, Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi ölkədir. Azərbaycan İsrail üçün həmişə cəlbedicidir. Özü də təkcə ona görə yox ki, bu ölkədə antisemitizm yoxdur və heç vaxt olmayıb, həm də ona görə ki, rəsmi Bakı dünyada antisemitizm təzahürlərini dəfələrlə pisləyib. İsrail ilə Azərbaycan arasında iqtisadi, siyasi və strateji əlaqələrin daim genişlənməsini nəzərə alsaq, bu qarşılıqlı cazibə xüsusilə aktuallaşır".





## "Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır"

Yanvarın 24-də Yeni Azərbaycan Partiyasının Nəsimi (YAP) rayon təşkilatı və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə dini maarifləndirməyə həsr olunmuş "Gənclər milli dəyərlərimizin qoruyucuları və daşıyıcılarıdır" mövzusunda tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı mövzu ilə bağlı ətraflı məlumat verib. O, Azərbaycandakı tolerant və multikultural mühit barədə danışıb, radikal dini cərəyanların, ekstremizmin təbliğində gəncləri özünə cəlb edən cəhətlər və buna qarşı profilaktik tədbirlər, xüsusilə maarifləndirmə işinin təşkili məsələlərinin vacibliyini vurğulayıb. Sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi və "Sağlam Gəncliyə Doğru" İctimai Birliyi tərəfindən hazırlanan "Oxu!" sənədli filmi nümayiş etdirilib. Filmin nümayişindən sonra çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, bu gün dünyanın bir sıra ölkələrində dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir. Prezident İlham Əliyev Azərbaycanda 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməklə bütün dünyaya birlik və həmrəylik mesajı verib.

Dini radikalizm və xurafat kimi təhdidlərin mövcud olduğunu deyən komitə sədri qeyd edib ki, Dövlət Komitəsi tərəfindən dini mühitdə cərəyan edən bu kimi mənfi halların qarşısının alınması, eləcə də dini radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə silsilə maarifləndirici tədbirlər həyata keçirilir. O, DQİDK-nın sifarişi əsasında "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır", "Üfüqdəki gələcək" adlı sənədli filmlərin çəkildiyini diqqətə çatdırıb.

Azərbaycanda dini radikalizmə qarşı mübarizənin qanun çərçivəsində aparıldığını və bu mübarizədə ən təsirli vasitənin məhz maarifləndirmə işinin olduğunu qeyd edən M.Qurbanlı əlavə edib ki, bu il Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən kiçikhəcmli videoçarxların, sənədli filmlərin hazırlanması nəzərdə tutulub.

Sonra mövzu ilə bağlı gənclərin və ictimaiyyət nümayəndələrinin sualları cavablandırılıb.

## Gürcüstan səfiri Azərbaycan XİN-ə çağırılıb

"Bu ilin 20 yanvar tarixində Gürcüstanın Axalkalaki şəhərinin Buqaşen qəsəbəsində Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının hərbi işğalında və bu ərazilərdəki azərbaycanlıların qətlində birbaşa iştirak etmiş Mikail Avakyana büstün qoyulması ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin təlimatı əsasında ölkəmizin Gürcüstandakı səfiri tərəfindən dərhal Gürcüstan XİN-də görüş keçirilib". Bu barədə SİA-nın sorğusuna cavab olaraq Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, ölkəmizin qeyd olunan məsələ ilə bağlı etirazı qarşı tərəfin diqqətinə çatdırılıb: "Eyni zamanda, Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə dəvət edilərək, ölkələrimiz arasında mövcud olan ikitərəfli strateji tərəfdaşlıq münasibətlərinin ruhuna cavab verməyən bu halın aradan qaldırılmasına dair təxirəsalınmaz tədbirlərin görülməsi tələb edilib. Məsələ Xarici İşlər Nazirliyinin nəzarətindədir".

Qeyd edək ki, Gürcüstanın Axalkalaki bələ-



diyyəsinin Buqaşen kəndində həmin yaşayış məntəqəsində doğulmuş, Ermənistan ordusunun tərkibində Dağlıq Qarabağda Azərbaycana qarşı vuruşmuş, dinc azərbaycanlı əhalini qətlə yetirmiş "Kobra" ləqəbli terroçu Mikail Avakyana abidə qoyulub. Ucaldılan abidənin açılış mərasimində Axalkalaki Bələdiyyə başçısı Yurik Hunanyan, deputatlar Enzel Mikonyan və Samvel Manukyan, Ermənistanın fövqəladə və səlahiyyətli səfiri Ruben Sadoyan, eləcə də Buqaşen və qonşu kəndlərin sakinləri iştitak ediblər.

Qarabağ müharibəsində ölən Mikail Avakyanın abidəsini və onun ətrafında salınan oyun meydançası xeyriyyəçi Qaqika Avaqyanın maddi dəstəyi ilə ərsəyə gətirilib. Abidənin açılışını Ermənistanın Gürcüstandakı səfiri Ruben Sadoyan və xeyriyyəçi Gagik Avaqyan birlikdə edib. Mərasimdə Mikail Avakyanın qızı, oğlu və nəvəsi iştirak ediblər. Terrorçu Mikail Avakyan Qarabağ müharibəsi başlayan zaman Ermənistan Ordusuna qoşulub, Azərbaycanın Xocavənd, Xocalı və Fizuli istiqamətlərində döyüşlərdə iştirak edib. Azərbaycanlı snayperin atəşi nəticəsində ağır yaralanan terrorçu xəstəxanaya aparılarkən yolda ölüb.

# Fondun 2018-ci ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib



***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəlikdəki məsələlər barədə məlumat verib:***

1. Fondun 2018-ci ilin yekunlarına həsr olunmuş hesabatının müzakirəsi və təsdiqi;
2. Fondun 2019-cu il üçün Tədbirlər Planının müzakirəsi və təsdiqi;
3. Fondun 2019-ci il üçün ekspertlərinin tərkibinin müzakirəsi və təsdiqi;
4. Cari məsələlər.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İclasda hesabat məruzəsi ilə çıxış edən icraçı direktor 2018-ci ildə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş hadisələrin diqqət mərkəzində saxlanıldığını bildirib.

V.Səfərli mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı layihələr barədə məlumat verib. İcraçı direktor Fondun 2018-ci ildə gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetə maliyyə dəstəyi göstərdiyini, həmin qəzetlərdə “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 6.000 səhifədən çox yazının dərc edildiyini bildirib.

Dövlət və cəmiyyət üçün həlli vacib məsələlərdə medianın potensialından səmərəli istifadəyə, jurnalist peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayrıldığını deyən Vüqar Səfərli Fond tərəfindən bu məqsədlə 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının 143-cü ildönümü və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu diqqətə çatdırıb. Fond 2018-ci ildə, həmçinin Müəllif Hüquqları Agentliyi, Suraxanı və Qaradağ rayon icra hakimiyyətləri, “Azərişıq”, “Azərenerji” açıq səhmdar cəmiyyətləri, Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (2 müsabiqə) ilə birgə 8 əlavə müsabiqə keçirib. Ümumilikdə, 2018-ci ildə keçirilmiş 11 müsabiqədə 817 nəfər iştirak edib, onlardan 443 nəfəri qalib olaraq mükafatlandırılıb.

İcraçı direktor Fondun Müşahidə Şurasının qərarı ilə ötən il fərdi jurnalist yazıları müsabiqələrində I yerə layiq görülmüş jurnalistlərin yazıları toplanaraq “Sözün zirvəsində” adlı kitabın IV cildinin nəşr edildiyini bildirib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncamına əsasən, Fond 2018-ci ildə Dağlıq Qarabağda erməni separatizminin 30 illiyi ilə əlaqədar “Dağlıq Qarabağda erməni separatizminin 30 ili: qlobal təhlükə” adlı kitab nəşr etdirib. Kitabda Fondun maliyyə yardımı ilə 2017-2018-ci illərdə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti üzrə layihə icra etmiş qəzetlərdə dərc olunmuş yazılar toplanıb.

Vüqar Səfərli bildirib ki, “Xalq Cümhuriyyəti ili” çərçivəsində Fond müsəlman Şərqində ilk demokratik və hüquqi dövlətin “İstiqlal bəyannaməsi”nin Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində elan edildiyini, Cümhuriyyətin ilk hökumətinin və onun banilərinin dövlətçilik fəaliyyətinin bu şəhərlə sıx bağlılığını nəzərə alaraq 2018-ci ilin oktyabr ayında aparıcı media rəhbərlərinin Tbilisi şəhərinə səfərini təşkil edib. Bundan əlavə, beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2018-ci ilin noyabr ayında aparıcı media qurumlarının rəhbərlərindən ibarət nümayəndə heyətinin Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə işgüzar səfəri təşkil edilib.

V.Səfərli Fondun 2018-ci ildə “Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması”, “Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması” və “Jurnalist peşəkarlığının artırılması” mövzusunda layihələri maliyyələşdirdiyini, hər üç layihə üzrə aparılmış monitorinqlər zamanı media və teleradio məkanının dil problemlərinin araşdırıldığını və müvafiq təkliflərin irəli sürüldüyünü vurğulayıb.

Fondun redaksiyalara metodiki, texniki-təşkilati, konsultativ və maliyyə dəstəyini davam etdirdiyini deyən V.Səfərli ötən il keçirilmiş digər layihə və tədbirlər barədə də ətraflı məlumat verib. Sonra hesabat ətrafında müzakirələr aparılıb. Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov və Ayaz Mirzəyev çıxış edərək Fondun 2018-ci ildəki fəaliyyətini qənaətbəxş dəyərləndiriblər və hesabat yekdilliklə qəbul edilib.

İclasda ikinci məsələ kimi Fondun 2019-cu il üçün Tədbirlər Planı müzakirə olunub. 2019-cu ilin respublikamızda “Nəsimi ili” elan olunduğunu deyən V.Səfərli hazırlanmış Tədbirlər Planında bunun nəzərə alındığını vurğulayıb. Tədbirlər Planı Müşahidə Şurasının üzvləri tərəfindən irəli sürülmüş bir sıra təkliflər nəzərə alınmaqla təsdiq edilib.

İclasda, həmçinin Fondun 2019-cu il üçün ekspertlərinin siyahısı müzakirə olunaraq təsdiq edilib. Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun qarşıdakı fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

## Yeni “Tufan” sərhəd gözətçi gəmisi Xəzər dənizində xidməti-döyüş fəaliyyətinə başlayıb



Bu il yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilmiş S-206 nömrəli “Tufan” tipli sərhəd gözətçi gəmisi yanvarın 23-də Xəzər dənizinə endirilib və xidməti-döyüş fəaliyyətinə başlayıb. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neftqaz hasilatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkil olunması üzrə vacib vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti döyüş imkanlarının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Ulu öndər Heydər Əliyevin dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə hər bir döyüş tapşırığını qürur və şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanıb.

## “Aslan İsmayılov. Yalan Anatomiyası” kitabı təqdim olunub

Dünən tanınmış vəkil Elçin Qəmbərovun “Aslan İsmayılov. Yalan Anatomiyası” kitabının təqdimat mərasimi keçirilib.

Publika.az xəbər verir ki, mərasimdə çıxış edən müəllif hüquqşünas Aslan İsmayılovun fəaliyyəti ilə bağlı sərt fikirlər səsləndirib.




O, A.İsmayılovun çoxüzlü və şantajçı bir şəxs olduğunu deyib: “Kitaba Aslan İsmayılovun 1993-cu ildə Heydər Əliyevin diqqətini çəkməkdən ötrü Milli Məclisdə etdiyi çıxışından başlamışam. Onun çıxışlarını təhlil edib, yalan danışdığını və böhtançı olduğunu göstərmişəm. Kitabda həmçinin Sumqayıt hadisələrinə də yer ayırmışam. O, özünü qəhrəman kimi göstərib, Moskvaya, KQB-yə qarşı çıxışlar etdiyini deyir. Mən faktlarla bunu təkzib etmişəm. Onun heç bir fəaliyyəti olmayıb. A.İsmayılov azərbaycanlıların tərəfində olsaydı, özünü ermənipərəst kimi aparmazdı”. Elçin Qəmbərov kitabda Aslan İsmayılovun fəaliyyəti ilə bağlı daha müfəssəl məlumatların olduğunu qeyd edib.

# Yüksək keyfiyyətli ali təhsil ocağı - “UNEC-100”

***2030-cu ilədək dövrü əhatə edən “UNEC-100” İnkişaf Strategiyasının məqsədlərindən biri yüksək keyfiyyətli ali təhsil ocağına çevrilməkdir. Strategiyaya əsasən, UNEC bu məqsədə nail olmaq üçün yüksək bal toplayaraq universiteti seçən abituriyentlərin sayını artırmağı, orta keçid balını 500-ə yüksəltməyi, tədris prosesini daim təkmilləşdirməyi, akademik heyətinin peşəkarlıq səviyyəsini və 40 yaşadək professor-müəllim heyətinin payını davamlı yüksəltməyi, təhsil proqramlarının beynəlxalq akkreditasiya olunmasını, tələbələrin təqaüd və yataqxana ilə təminolunma imkanlarını artırmağı, ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərməyi hədəfləyib.***

Sənəddə hər bir hədəfə nail olmaq üçün stratefi fəaliyyətlər əks olunub. Ölkədə orta təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin ilkin iqtisadi biliklərinin formalaşdırılmasına dəstək verilməsi, təhsil proqramları ilə bağlı tanıtım tədbirlərinin genişləndirilməsi, baza məktəblərinin sayınına artırılması UNEC-in strateji fəaliyyətləri kimi göstərilib.

2030-cu ilə qədər tədris prosesini təhsilalanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə daim təkmilləşdirməyi hədəfləyən UNEC bu istiqamətdə də əsas fəaliyyətlərini müəyyən edib. Belə ki, həmin dövrədək ixtisaslar, tədris standartları və planlarının dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması, müəllimin tələbə tərəfindən seçiminin təmin edilməsi, aktiv dərs yükünün və hər müəllimə düşən tələbə sayınının 1/16 nisbətinə qədər azaldılması nəzərdə tutulub.




Strategiyaya görə, ixtisas fənlərinin tədrisində effektivliyi təmin etmək, tədrisin informasiya təminatını yaxşılaşdırmaq, Azərbaycan dilində tədris resurslarını inkişaf etdirmək, 24/7 kitabxana şəbəkəsi qurmaq, mentorluq institutu formalaşdırmaq, tələbələrin İKT, akademik yazı və natiqlik bacarıqlarını inkişaf etdirmək, mübadilə proqramlarına daha çox müəllim və tələbə cəlb etmək, innovativ təlim metodlarından istifadəni genişləndirmək, tələbələrin təcrübəsinin təşkilini təkmilləşdirmək, “oriyentasiya günləri”nin səmərəliliyini artırmaq əsas fəaliyyət istiqamətləri kimi təsbit olunub. UNEC 100 illik yubileyinədək ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərən Distant Təhsil Mərkəzi formalaşdıraraq, ümumi fənlərin distant tədrisini, eləcə də distant təhsil proqramlarını təklif etməyi də hədəf seçib.

# AZƏRBAYCAN DƏMİR YOLU İNKİŞAFININ YENİ MƏRHƏLƏSİNDƏ

## *Azərbaycan dəmir yollarının texniki tərəqqisi və hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır*

***Birmənalı şəkildə, demək olar ki, son 15 ildə aparılan iqtisadi islahatlar, daxili və xarici siyasət nəticəsində Azərbaycan, nəinki MDB dövlətlərini, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrini də geridə qoyub. 2004-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, qeyri-neft ixracı isə 4,1 dəfə artmışdır.***

Bu müddətdə dövlət büdcəsinin gəlirləri 13,3 dəfə artaraq, 1,5 milyard manatdan 20,1 milyard manata çatmışdır. 2004-cü ildə valyuta ehtiyatları, 1,8 milyard dollar olduğu halda, bu gün valyuta ehtiyatlarımız 43 milyard dollar həcmindədir. Bu da valyuta ehtiyatlarının 23 dəfə artması deməkdir. Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirmişdir ki, bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir: "Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq eyni zamanda, dünyada gedən proseslərə baxdıqda, hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu, onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir".

### İslahatların əsasının qoyulduğu tarix

Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan irihəcmli islahatlar, bütün sahələrdə olduğu kimi, dəmir yolu nəqliyyatında da uğurla həyata keçirilir. Bu baxımdan, demək olar ki, Azərbaycan dəmir yollarının texniki tərəqqisi və hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi Öndərimizin Azərbaycana rəhbərlik etdiyi 1969-2003-cü illərdə Azərbaycan dəmir yolu infrastrukturunda mühüm nailiyyətlər əldə olunmuşdur. Məhz bu illərdə 14300 yeni texniki metod tətbiq edilmiş və bu, dəmir yolunun bütün sahələrini əhatə etmişdir. Ulu Öndərin respublikaya ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, istərsə də keçmiş SSRİ hökumətində yüksək vəzifə tutduğu 1983-1987-ci illərdə Azərbaycan dəmir yolu müasir texniki maşın-mexanizmlərlə və avadanlıqlarla təchiz olunmuşdur. Həmin illərdə Azərbaycanın yüzlərlə ən yaxşı dəmiryolçusu orden və medallarla təltif edilmişdir ki, bu da Ümummilli Lider tərəfindən dəmir yoluna və dəmiryolçulara göstərilən böyük qayğı və diqqətin təzahürlərindən biridir. Digər sahələrdə olduğu kimi, dəmir yolunda da rəhbər vəzifələrdə çalışan şəxslərin böyük əksəriyyəti, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1970-1987-ci illərdə xaricdə təhsil almış mütəxəssislərdir. Bugünkü reallıq və faktlar, bir daha göstərir ki, Ümummilli Liderin zamanında atdığı hər bir addım gələcəyə hesablanmış strategiyanın reallaşmasına yönəlmişdir.



**CAVİD QURBANOV**
**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, millət vəkili**

### Dəmir yolunda kompleks işlər həyata keçirilir

Dəmir yolu sahəsində aparılan islahatlar və bunun nəticəsində əldə olunan uğurlar son 15 ildə daha geniş və çoxşaxəli xarakter daşımışdır. Ulu Öndərimiz Heydər Əliyevin layiqli varisi, ölkə Prezidenti İlham Əliyevin apardığı düzgün, məqsədyönlü siyasəti nəticəsində dəmir yolu nəqliyyatında dinamik inkişafa və tərəqqiyə nail olunmuşdur. "Azərbaycan Dəmir Yolları" QSC-də gedən yeniləşmə prosesinin əsas tərkib hissələrindən biri yolların əsaslı təmiridir. Bu istiqamətdə dəmir yolunda kompleks işlər görülür. Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin gələcəkdə fəaliyyət göstərməsi Azərbaycan üzərindən yük axınının dəfələrlə artmasına gətirib çıxaracaq. Bunun üçün dəmir yolunda irihəcmli işlər aparılır. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın nəqliyyat qurumları, o cümlədən, dəmir yolu beynəlxalq layihələrin reallaşması prosesində aktiv iştirak edir. 2018-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısında təkcə üç xalqı, üç ölkəni deyil, həmçinin, onlarla xalq və ölkə arasında körpü rolunu oynayacaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılış mərasimi olub. Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının daim nəzarətində olan layihədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu nəqliyyat dəhlizinin əhəmiyyətini dəfələrlə vurğulayıb. O, bildirib ki, biz tərəfdaşlarımız - Gürcüstan və Türkiyə ilə dəmir yolunun inşasının təşəbbüskarı olduq. Bu dəmir yolu üç ölkəni və qitələri birləşdirir. Biz qarşılıqlı ticarət dövriyyəmizi bu dəmir yolu xətti olmasa belə artıra bilərdik. Ancaq bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirməyə lazımdır. Bu, ən qısa nəqliyyat marşrutudur. Artıq bir ildən çoxdur ki, Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu ilə yüklərin daşınmasına başlanılıb. "Azərbaycan Dəmir Yolları" QSC 2019-cu ildə Bakı-Tbilisi-Qars marşrutu ilə sərnişin daşınmasının təşkilini planlaşdırır. Bu məqsədlə İsveçrənin "STADLER Rail Group" şirkəti tərəfindən istehsal olunmuş yeni yataq tipli vaqonlar Azərbaycana gətiriləcək. Sözügedən vaqonlar ən son texnologiya əsasında istehsal edilir. Almaniyanın Donauvörth və Treuchtlingen dəmir yolu stansiyaları arasında Bakı-Tbilisi-Qars dəmir yolu marşrutunda hərəkət edəcək sərnişin vaqonlarının bütün parametrlər üzrə testləri keçirilib.Testlər Almaniyanın dəmir yolları tərəfindən 35 km məsafədə aparılıb. Yoxlanış zamanı vaqonların sürət həddi 177 km/saatadək çatdırılıb. Eyni zamanda, Azərbaycan və Türkiyə Bakı-Tbilisi-Qars dəmir yolunda istifadə olunacaq yeni növ vaqonların istehsalına başlamağı planlaşdırır.

### Beynəlxalq nəqliyyat layihələrindən əldə olunan uğurlar

Azərbaycanın, xüsusilə, önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə, bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Ölkələr arasında mütəmadi konteyner əlaqəsinin təmin edilməsi üçün Hindistan-İran-Azərbaycan-Rusiya-Latviya multimodal marşrutu yaradılacaq. Bu marşrut "Şimal-Cənub" layihəsi çərçivəsində fəaliyyət göstərəcək. Təklif olunan logistik qərarın Hindistandan Avropaya effektiv, etibarlı və sürətli yük axınını təmin edəcəyi nəzərdə tutulur. Latviyanın logistik xidmətləri və üstünlüklərindən istifadə etməklə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində Baltika və Şimali Avropa, eləcə də, Şərqi və Qərbi Avropa regionu ölkələrinə çıxış yaranır. Bu da, bir faktdır ki, Azərbaycandan iki çox vacib beynəlxalq nəqliyyat dəhlizi keçir - Hindistan, İran, Azərbaycan, Rusiyanın şimal-qərbi və Baltik dənizi regionunu birləşdirən "Şimal-Cənub" dəhlizi, həmçinin, Yeni İpək Yoluna daxil olan Xəzər və Qara dəniz regionları arasında strateji əlaqə yaradan TRACECA - Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi. Azərbaycanın yükdaşımanın inkişafı baxımından əla perspektivləri var. İranla dəmir yolu xəttinin inkişafı "Şimal-Cənub" Dəhlizini möhkəmləndirəcək, artıq istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu isə "Şərq-Qərb" istiqamətini inkişaf etdirəcək.

### Dəmir yolu yeni islahatlar mərhələsində

Ddəmir yolunun lokomotiv parkının yenilənməsi istiqamətində mühüm nailiyyətlər qazanılıb. Belə ki, Qazaxstandan 10 ədəd teplovozun alınması üçün müqavilə imzalanmışdır. Artıq teplovozların hamısı ölkəmizə gətirilib.Fransanın "Alstom Transportation S.A." şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında 12 may 2014-cü il tarixdə bağlanmış müqavilənin tərkib hissəsi kimi hal-hazırda 10 ədəd Prima M4 (AZ4A) sərnişin lokomotivi istehsal edilməkdədir. Bu yaxınlarda Belfort şəhərində "Alstom Transportation S.A." şirkətinin "Azərbaycan Dəmir Yolları" QSC üçün istehsal etdiyi birinci Prima M4 sərnişin lokomotivinin təqdimat mərasimi keçirilib. Eyni zamanda, "Azərbaycan Dəmir Yolları" QSC ilə Rusiya Federasiyasının F. Dzerjinski adına "Uralvaqonzavod" Elmi-İstehsal Korporasiyası arasında 3100 müxtəlif təmayüllü yük vaqonunun alınması ilə bağlı müqavilə imzalanmış, qısa müddət ərzində, yeni yuk vaqonları ölkəmizə gətirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 noyabr 2018-ci ildə Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında iştirak edib. Üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalının sahəsi 5,5 min kvadratmetrdir. Binada gözləmə zalı, bilet kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yaradılıb və yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Bundan əlavə, stansiyada 7 yol yenidən qurulub və çəkilmiş dəmir yollarının ümumi uzunluğu 5 min 20 paqonmetrdir. Kompleksdə 12 yol dəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib. 29 dekabr 2018-ci ildə Bakı-Gəncə sürət qatarının təqdimat mərasimi keçirilib. Gəncə istiqamətində bu tipli müasir qatarın istismarı həm də əhalinin sosial sifarişinin ödənməsinə əhəmiyyətli təsir göstərəcəkdir. İlin payız və qış mövsümlərində sərnişinlər dəmir yolu nəqliyyatının imkanlarından daha çox yararlanırlar. Belə ki, avtomobil yollarında problemli hallar ortaya çıxdıqda, sərnişinlər daha etibarli nəqliyyat vasitəsi kimi qatarlardan istifadə edirlər. Nəhayət, istismara verilən qatarda mövcud olan şərait daha mədəni və komfortludur ki, bu da sərnişinlərin rahat yolçuluğuna şərait yaradır. Bu tipli qatarın ölkəmizdə hərəkət sisteminə daxil olması ciddi hadisədir və onun nə qədər əhəmiyyətli bir nəqliyyat vasitəsi olduğunu zaman göstərəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda "ASAN qatar" sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar "ASAN qatar" gözləmə zalı, laboratoriya, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla, 4 vaqondan ibarətdir. Səyyar "ASAN qatar" vasitəsilə 4 dövlət orqanı tərəfindən 9 növ xidmət göstərilir. Eyni zamanda, qatarda 3 növ funksional yardımçı xidmətlər - foto və tibb xidməti, o cümlədən, "Azərpoçt" MMC tərəfindən göstərilən bank xidmətləri təşkil edilib.

"Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 7 mart 2018-ci il Sərəncamına əsasən, Abşeron yarımadasında mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi, mövcud dəmir yolu xətlərinin reabilitasiyası və bərpası, elektrik təchizatı, rabitə və işarəvermə şəbəkəsinin əsaslı təmiri, yol kənarlarının mühafizə çəpəri ilə bağlanması, bəzi dəmir yolu keçidlərinin müxtəlif səviyyəli keçidlərlə əvəzlənməsi, stansiya binalarının yenidən qurulması və digər işlərin aparılması nəzərdə tutulur. Dairəvi dəmir yolunda 107 km yolun yenidən qurulması nəzərdə tutulur. Genişləndirmə işləri Bakı-sərnişin, Nərimanov, Keşlə, Koroğlu dayanacağı, Bakıxanov, Sabunçu, Zabrat, Pirşağı, Goradil, Fatmayi, Saray və Sumqayıt istiqamətində olacaq. Əks-istiqamətdə isə, Bağlar stansiyasına, sonra Dübəndiyə qədər, həmçinin, Binə qəsəbəsi - hava limanına qədər genişləndiriləcək.

Bir sözlə, dəmir yolu nəqliyyatında islahatlar prosesi özünün sürətli inkişaf mərhələsini uğurla davam etdirir. Yaxın vaxtlarda dəmir yolu infrastrukturunda daha mükəmməl və dünya ölkələri üçün nümunə ola biləcək daha yeni uğurları və nailiyyətləri görə biləcəyik.

# "Davos Dünya İqtisadi Forumu strateji platforma hesab olunur"

***"Davos İqtisadi Forumu strateji dialoq platformasıdır və Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında mühüm rol oynayır - Davos Dünya İqtisadi Forumu qlobal və regional səviyyədə dünyanın başlıca siyasi, sosial və iqtisadi problemlərinin müzakirəsinin aparılması üçün strateji platforma hesab olunur. Bunun əsas səbəbi iqtisadi və siyasi sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq və regional səviyyəli təşkilatların rəhbərləri ilə interaktiv dialoqların və qeyri-rəsmi danışıqlar üçün əlverişli mühitin təşkil olunmasıdır". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.***

Millət vəkilinin sözlərinə görə, Forum çoxsaylı mövzular üzrə sessiyalardan ibarət olur və bu sessiyaların əksəriyyəti geniş miqyasda izlənilməsi üçün müxtəlif transmilli media qurumları tərəfindən birbaşa nümayiş etdirilir: "Forum müddətində transmilli korporasiyaların rəhbərləri ilə dialoqların qurulması və müxtəlif ölkələrin hökumət nümayəndələri ilə ikitərəfli görüşlərin keçirilməsi üçün əlverişli imkanlar yaradılır. İsveçrənin Davos şəhərində keçirilən 49-cu Davos Dünya İqtisadi Forumu dünyanın diqqət mərkəzində oldu. Dünyanın 100-dən çox ölkəsinin dövlət və hökumət rəhbərlərinin dəvət olunduğu beynəlxalq tədbirdə 1000-dən artıq qlobal şirkətin rəhbər şəxsləri, beynəlxalq qurumların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, aparıcı media şirkətlərinin nümayəndələri də iştirak ediblər. "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında keçirilən builki Forumda qloballaşan müasir dünyanın əsas problemləri müzakirə predmetinə çevrilib. İqtisadi xarakter daşımasına baxmayaraq, Davos Forumu dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir. Forum dünyanın iqtisadi mənzərəsinin şəkilləndirilməsində önəmli rol oynayır. Burada irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir.

Davos Forumu, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan Davos Forumu, şübhəsiz ki, bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır. Düşünürük ki, 49-cu Davos Dünya İqtisadi Forumunun nəticələri dünya iqtisadiyyatında müsbət meyillərin artması, milli dövlətlər arasında ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı, eyni zamanda, yeni əməkdaşlıq platformalarının formalaşdırılması baxımından mühüm əhəmiyyətə malik olacaq. Azərbaycanın Dünya İqtisadi Forumunda uğurla təmsil olunması ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsi baxımından xüsusi önəm kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev Forumda müxtəlif televiziya kanallarına müsahibəsi və müzakirələrdə çıxışı zamanı həm ölkəmiz, həm də region və dünya üçün müstəsna əhəmiyyətə malik olan çox mühüm məsələlərlə bağlı fikirlər söyləyib, eyni zamanda, Azərbaycanın iqtisadi inkişafı, beynəlxalq nüfuzu və ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi islahatların əhəmiyyəti diqqətə çatdırılıb. Prezident İlham Əliyevin Davosda transmilli şirkətlərin təsisçiləri və sədrləri ilə bir sıra mühüm görüşlər keçirməsi də Azərbaycanın əməkdaşlıq əlaqələrinin inkişafı kontekstində böyük əhəmiyyətə malikdir. Şübhəsiz ki, bütün bunlar Forum iştirakçılarında Azərbaycan iqtisadiyyatı və ölkəmizin iqtisadi siyasəti barədə real təsəvvür yaratmaqla əməkdaşlığ üçün yeni perspektivlərin açılacağından xəbər verir. Prezident İlham Əliyevin xeyli sayda görüşlər keçirməsi dünyanın ölkəmizə olan diqqətinin göstəricisidir və yeni tərəfdaşlıqların əsasının qoyulmasına zəmin yaradır. Əvvələ qeyd edək ki, Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı və orada söylədiyi fikirlər böyük maraq doğurur. Mütəxəssislər Azərbaycanın dövlət başçısının təhlillərinə və irəli sürdüyü fikirlərə ciddi diqqət yetirirlər, dövlət başçısının səsləndirdiyi fikirlər beynəlxalq mətbuatın diqqət mərkəzində olur. Prezident İlham Əliyevin builki Forumda səsləndirdiyi fikirlər də olduqca böyük diqqət və marağa səbəb olub.



Dövlətimizin başçısı yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada regional və qlobal xarakterli məsələlərə diqqət yetirdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Dövlətimizin başçısı vurğuladı ki, bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Əlbəttə, Azərbaycanın əlverişli coğrafi mövqeyi respublikamızın istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Azərbaycan həm daxili ictimai-siyasi sabitlik amilinə və iqtisadi potensialına, həm də quru və su sərhədlərinə malik olmasına görə beynəlxalq tranzit daşımaları üçün kifayət qədər cəlbedici məkandır. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik Azərbaycan nəqliyyat xidmətlərini daim inkişaf etdirir, müasir infrastrukturlar qurur, daşımaların idarə olunması mexanizmini təkmilləşdirir və beynəlxalq nəqliyyat sisteminə inteqrasiyanı genişləndirir. Həm Şərq-Qərb, həm Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizdən keçir. O da qeyd edilməlidir ki, ölkəmizdə avtomobil və dəmir yollarının, beynəlxalq hava və dəniz limanlarının inkişafına çox böyük investisiyalar qoyulur. Bütün bunların hamısı gələcəyə hesablanan və perspektivdə Azərbaycandan daha çox tranzit yüklərin keçməsi üçün atılan strateji əhəmiyyətli addımlardır. Ölkəmiz tərəfindən logistika və ticarətin inkişafı istiqamətində görülən işlər, Azərbaycanın tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirilən dövlət siyasəti və qlobal miqyaslı təşəbbüslər ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir.

Azərbaycanın xarici siyasətinin ən mühüm strateji prioriteti Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Bunun üçün Azərbaycan ötən illər ərzində mühüm, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə, ilk növbədə, problemin həlli ilə bağlı yeni şərtlər formalaşdırmağa nail olub. Bu şərtlərin formalaşdırılması mühüm strateji istiqamətlər üzrə müəyyən edilmiş ardıcıl və məqsədyönlü siyasət sayəsində mümkün olub. İlk növbədə, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılması, regional və beynəlxalq təşkilatlarla ölkəmizin bərabərhüquqlu tərəfdaşlığa nail olması, ikincisi isə, regionda ermənilərlə ənənəvi əlaqələri olan və daha çox Ermənistanın tərəfdaşı kimi tanınan ölkələri öz tərəfdaşına çevirməsi siyasəti həyata keçirilib. Eyni zamanda, Azərbaycan regional əməkdaşlığı prinsipial mövqe olaraq müəyyənləşdirməklə tərəfdaş ölkələrin milli maraqlarını da öz milli maraqları ilə uzlaşdırmağı bacarıb. Hazırda Ermənistan həm regionda, həm də beynəlxalq aləmdə Azərbaycanın nüfuzu qarşısında küncə sıxışdırılmış vəziyyətə düşüb, ənənəvi müttəfiqlərini də itirib. Azərbaycan Prezidentinin də dediyi kimi, Azərbaycan işğalçı Ermənistana qarşı təcrid siyasətini uğurla davam etdirib və işğal faktı davam etdikcə həmin siyasəti davam etdirəcəyik. Yeni reallıq və Ermənistanın bu cür küncə sıxışdırılması onun öz ənənəvi müttəfiqləri ilə münasibətlərinin korlanmasına gətirib çıxarıb ki, ötən ilin aprelində başlayıb dekabr ayında sona çatan hadisələrdə biz bir daha bunun şahidi olduq. Ona görə də Azərbaycan 2019-cu ilə yeni yaratdığı geosiyasi reallıqlarla qədəm qoyub. Bu reallıqlar ölkəmizin lehinədir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində yeni perspektivlər yaradır. Elə Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə Ermənistanın baş naziri ilə görüşməsini də bu perspektivlər kontekstində qiymətləndirmək lazımdır. Artıq qeyri-rəsmi formatda belə görüş Sankt-Peterburq və Düşənbədə baş tutub. Davos görüşü isə bir qədər daha fərqli formada vasitəçilərin iştirakı olmadan baş tutdu. Bu, özlüyündə müsbət hal olmaqla ilk dəfədir ki, baş verir.

Məsələ ondadır ki, 2019-cu ildə problemin həlli istiqamətində danışıqlara yeni impulsların daxil olacağı barədə Prezident İlham Əliyev fikirlər səsləndirmişdi. 2019-cu ildə həmsədrlərin iştirakı ilə xarici işlər nazirlərinin görüşməsi, bu görüşün 4 saat davam etməsi və bundan sonra BMT Baş katibi və Avropa İttifaqının bəyanatla çıxış edərək danışıqları müsbət qiymətləndirməsi özlüyündə yeni dinamikadır və müəyyən ümidlər yaradır. Nəzərə almaq lazımdır ki, hazırda Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq problemin həllini zəruri edir və bu, Ermənistanda da dərk edilən reallığa çevrilməkdədir. Ona görə də əgər fövqəladə bir hadisə baş verməsə, 2019-cu ildə Dağlıq Qarabağ probleminin həlli istiqamətində intensiv və nəticəyə yönəlik danışıqlar prosesinin davam etdiriləcəyini müşahidə edə bilərik. Azərbaycanın prinsipial mövqeyi qəbul edilir və danışıqlar prosesi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, sərhəd toxunulmazlığı çərçivəsində aparılır".

***Ceyhun Rasimoğlu***

## "Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində önəmli mövqeyə sahibdir"

"Davos İqtisadi Forumu həm də o xüsusiyyətləri ilə seçilir ki, burada ölkələrin iqtisadi gücləri ilə yanaşı, həm də xarici siyasət faktorları da müəyyən olunur. Çünki diplomatiya elə bir amildir ki, onun tətbiqi bütün sferaları, arealları əhatə etməlidir. Məhz bu mənada, Prezident İlham Əliyevin Davos Forumunda iştirakı, eləcə də xarici ölkə missiyalarının, eləcə də media qurumlarının Ona olan diqqət və maraq kontekstindən çıxış etmələri müstəqil siyasət yürüdən, eyni zamanda, islahatçı, tərəqqi və inkişaf yolunu tutan Azərbaycana böyük marağın bariz nümunəsidir". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı barədə münasibətini açıqlayarkən deyib.



Siyasi ekspertin sözlərinə görə, Azərbaycana olan diqqətlərdən biri də ölkəmizin müxtəlif beynəlxalq layihələrdə təşəbbüskar, həmçinin ideyaverici rolunda çıxış etməsindən irəli gələn uğur tendensiyasıdır: "Əbəs deyil ki, Azərbaycan Avropanın ən mütərəqqi enerji layihələrində öncüllük təşkil edir, həm də, enerji təhlükəsizliyi məsələsində önəmli mövqeyə sahibdir".

Bəhruz Quliyev bildirib ki, biznes mühiti baxımından da ölkəmiz liderlər sırasında yer alıb: "Bu gün Azərbaycana yalnız investisiyalar qoyulmur, eləcə də Azərbaycan bir sıra xarici ölkələrə sərmayələr yatırır, müştərək, qlobal layihələrə imza atır. Əlbəttə ki, illər öncə biz bütün bunları təsəvvürümüzə belə, gətirə bilməzdik. Lakin cənab İlham Əliyevin məqsədyönlü, müdrik və möhtəşəm siyasi təcrübəsi nəticəsində ölkəmiz qısa müddət ərzində çox böyük bir yol keçib".

Baş redaktor Davosda Prezident İlham Əliyevin Çinin CGTN televiziya kanalına müsahibəsində irəli sürdüyü fikirlərinə də toxunaraq bildirib ki, Azərbaycanın inamla uğurlar qazanması istər daxili, istərsə də müəyyən xarici qüvvələri narahat edir: "Ölkəmizin artan nüfuzuna qarşı fəaliyyət göstərənlərə, dövlət başçımız bu müsahibəsində ən layiqli cavabını verib. O, vurğulayıb ki, sənin tənqid edənlərə nail ola biləcəyin işlərlə cavab verməlisən. Bəli, bu bir liderin, xalqın iradəsi və dəstəyi ilə ölkəsini uğurla idarə edən Prezidentin skeptik, uğursuz düşüncə sahiblərinə verdiyi ən mükəmməl cavabıdır".

Bəhruz Quliyev sonda qeyd edib ki, yalnız Davos İqtisadi Forumu deyil, həmçinin digər nüfuzlu beynəlxalq forum və tədbirlərdə cənab İlham Əliyevə göstərilən rəğbət bir reallıqdır ki, müasir, müstəqil Azərbaycan dövləti bundan sonra da davamlı, dayanıqlı, dinamik inkişaf yolu ilə irəliləyəcək, dünyanın qlobal problemlərinin həll olunmasında söz sahibi qismində çıxış edərək, daha nəhəng uğurlara imza atacaq: "Biz, bu gerçəkliyin şahidləriyik. Söz yox ki, bu gerçəkliklər xalqımızın daha firavan yaşaması, dövlətimizin daha da qüdrətli olması üçün atılan addımlardır. Hesab edirəm ki, Davos İqtisadi Forumu və bu Forumda Prezident İlham Əliyevin iştirakı qeyd edilən bütün fikirləri kifayət qədər sübut etməkdədir".

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənilər İlham Əliyev-Paşinyan görüşündən nə gözləyirlər?

## *Rusiyalı politoloq bəzi kartları açaraq proqnozlarını verdi*

***Azərbaycan və Ermənistan dövlət rəhbərlərinin Davos İqtisadi Forumunda qeyri-rəsmi görüşlər keçirmələrinin ardınca, erməni mediası və ictimai rəyi həmin görüş ətrafında müxtəlif mülahizələrlə, proqnoz və ehtimallarla çıxış edirlər. Artıq bu görüş ətrafında Rusiyanın siyasi ekspert və politoloqları da şəxsi baxışlarından çıxış edib, mülahizələrini irəli sürməkdədirlər. Rusiyanın tanınmış konfliktoloqu və siyasi şərhçisi Stanislav Tarasovun sözügedən məsələ ilə bağlı erməni mediasına verdiyi proqnozları maraqdoğurucudur.***



Stanislav Tarasov:

**"Nəzərlərdən qaçmadı ki, İlham Əliyev kifayət qədər şən, Paşinyan isə əzgin vəziyyətdə idi, belə ki, İlham Əliyev bu partiyada qalib gəlir"**

"Baxmayaraq ki, detalların müzakirə olunmaması barədə fikirlər bildirilir, biz müəyyən yaşa malik insanlarıq və çox gözəl anlayırıq ki, əgər söhbət üçün konkret mövzu olmazsa, bu zaman danışmağa da ehtiyac olmaz".

Bu barədə Ermənistanın "168 jam" qəzetinə açıqlamasında rusiyalı politoloq Stanislav Tarasov Davosda Azərbaycan və Ermənistan dövlət başçılarının qeyri-rəsmi görüşləri ilə bağlı proqnozlarını irəli sürərkən deyib.

"Nəzərlərdən qaçmadı ki, Prezident İlham Əliyev kifayət qədər şən, Paşinyan isə əzgin vəziyyətdə idi, belə ki, Prezident İlham Əliyev bu partiyada qalib gəlir" deyən Tarasov digər məqamlara da toxunub: "Paşinyan bəyan etmişdi ki, "Artsax" (Qarabağ-R.N.) danışıqlar tərəfi olmalıdır, lakin bu istiqamətdə heç bir addım atılmadı. Hazırkı məqamda onlar etibarlılığın möhkəmləndirilmə ölçüsü ətrafında danışırlar".

**"Erməni politoloq və ekspertləri əgər Qarabağın iştirakı olmadan məsələnin həll olunması mümkünlüyünü inkar edirlərsə, bu zaman onlar romantikdirlər"**

S.Tarasov, həmçinin, bildirib ki, savadlı konfliktoloq, hətta beynəlxalq əlaqələrin üçüncü kurs tələbəsi deyə bilər ki, münaqişənin tənzimlənməsi prosesində tərəflər etibarlılığın möhkəmləndirilməsi mexanizmini hazırlayırlar. Sülh barədə isə, müəyyən olunmuş mərhələləri keçdikdən sonra danışmağa başlayırlar. Yəni bu, daha öncəki mərhələlər keçildikdən sonra üçüncü, ya da dördüncü mərhələdə baş verir.

Rusiyalı konfliktoloq, erməni politoloqları və ekspertlərinə istehza etməyi də unutmayıb. "Erməni politoloq və ekspertləri əgər Qarabağın iştirakı olmadan məsələnin həll olunması mümkünlüyünü inkar edirlərsə, bu zaman onlar romantikdirlər. Gördüyünüz kimi, həll olunur".

**Azərbaycan tərəfi bəyan edir ki, rayonları geri qaytarmaq vacibdir və bu tələb açıq şəkildə bildirilir" bəs Ermənistan hansı addımları atmağa hazırlaşır, bəlli deyil..."**

Politoloq, həmçinin, bəyan edib ki, iyunda Paşinyan və Prezident İlham Əliyev Qarabağ üzrə razılaşma imzalayacaqlar və buna əsasən, erməni tərəfi dolayı kompromislər yolu ilə bir neçə rayonu azad etməli olacaq. Onun sözlərinə görə, məhz bundan sonra Türkiyə parlamenti erməni-türk protokollarına geri dönəcək və onları ratifikasiya edəcək, diplomatik münasibətlər bərpa olunacaq və "yoldaş Paşinyanın iradəsi yerinə yetiriləcək".

S.Tarasov sonda deyib: "Azərbaycan tərəfi bəyan edir ki, rayonları geri qaytarmaq vacibdir və bu tələb açıq şəkildə bildirilir, bəs Ermənistan hansı addımları atmağa hazırlaşır, bəlli deyil - bəs ermənilər tərəfi susur və əgər erməni tərəfi Azərbaycanla bu barədə danışmasaydı, onda Prezident İlham Əliyev heç vaxt Paşinyana belə münasibət göstərməzdi, əksinə, onu müharibə ilə təhdid edər və ultimatumlar dili ilə danışardı".

*Rövşən NURƏDDİNOĞLU*

# AŞPA-nın sessiyasında Ermənistanın hərbi təcavüzü nəticəsində əlil olmuş azərbaycanlılardan danışılıb



Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində ölkəmizdə minlərlə insan əlil olub. Əlillərin işlə təminatı üçün qanunvericilikdə bir sıra önəmli dəyişikliklər edilib. Məşğulluq haqqında qanun və proqramlarda əlillərin işlə təminatı məsələsi ən önəmli prioritetlərdəndir. Hər il Qarabağ müharibəsi əlilləri də daxil olmaqla, yüzlərlə əlil dövlət tərəfindən pulsuz mənzillə təmin olunur.

Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Azad Demokratlar Qrupunun vitse-prezidenti Qənirə Paşayeva qurumun qış sessiyası çərçivəsində "İşə qəbulda ayrı-seçkilik" və "Fiziki məhdudiyyətli inklüziv işçi qüvvəsi üçün" adlı məruzələrin müzakirəsi zamanı söyləyib. O bildirib ki, üzv ölkələr sağlamlıq imkanları məhdud olan insanların təhsili, onların işlə təminatı istiqamətində səylərini daha da artırmalıdırlar. Fiziki məhdudiyyətli insanların təhsili, onların hər hansı bir peşəyə yüksək səviyyədə yiyələnməsinə dəstək proqramları artırılmalıdır. Bu, onların işlə təminatını asanlaşdıran başlıca amillərdən biridir.

Deputat məruzəçinin üzv ölkələrə çağırışlarını dəstəklədiyini söyləyib. Bu mövzuların ölkəmizdə xüsusi diqqət mərkəzində olduğunu, sağlamlıq məhdudiyyəti olan insanların təhsili, işlə təminatı, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində həm qanunvericilik, həm də hökumət səviyyəsində ciddi addımlar atıldığını diqqətə çatdırıb. "Məruzədə üzv ölkələrə edilən çağırışlar arasında bu mövzuda əhalinin maarifləndirilməsi, təbliğatın rolu xüsusi vurğulanır ki, biz bunu dəstəkləyirik. Əlillərin əmək bazarında iştirakının təşviqində qeyri-hökumət təşkilatlarının oynadığı önəmli rolu nəzərə alaraq bu cür təşkilatların maliyyə vəsaiti ilə dəstəklənməsi artırılmalıdır. Ölkəmizdə məruzədə qeyd olunan məsələlərə xüsusi diqqət verilir. Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları yaradaraq əlillərlə bağlı çalışması dəstəklənir. Eyni zamanda, əlillərin yaratdığı, eləcə də əlillərlə bağlı layihələr həyata keçirən təşkilatların fəaliyyətinə maliyyə dəstəyi göstərilir. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Gənclər Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə hər il əlillərlə bağlı yüzlərlə layihənin həyata keçirilməsi üçün qeyri-hökumət təşkilatlarına dəstək göstərilir", - deyə Q.Paşayeva bildirib.

# Pulsuz müalicə oluna bilməyən Ermənistan vətəndaşı özünü yandırmaq istəyib



Yerevanda pulsuz müalicə üçün xəstəxanaya götürülməyən Ermənistan vətəndaşı özünü yandırmaq istəyib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistan Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, yanvarın 24-də Yerevanın mərkəzindəki dövlət xəstəxanasının qarşısında özünü yandırmaq istəyən 62 yaşlı vətəndaşla bağlı "911" zəng mərkəzinə məlumat daxil olub. Məlum olub ki, kəskin ağrılardan əziyyət çəkən vətəndaş bir gün əvvəl xəstəxanaya müraciət edib, lakin ona bildiriblər ki, dövlət hesabına müalicə olunmaq üçün müvafiq arayış təqdim etməlidir. Səhiyyə Nazirliyinə göndərilən xəstəni oradan da paytaxt meriyasına yollayıblar. Şəhər meriyasından isə təcili tibbi yardıma möhtac olan vətəndaşa bir neçə gündən sonra gəlməsi məsləhət görülüb. Ağrıları şiddətlənən yaşlı adam xəstəxananın qarşına gələrək üzərinə benzin tökub və özünü yandırmaq istəyib. Hazırda faktla əlaqədar polis tərəfindən araşdırma aparılır. Xəstə isə səhiyyə idarəsi və xəstəxananın baş həkiminin uzunsürən danışıqlarından sonra həkim müayinəsindən keçirilib.

# Ali təhsillə bağlı qanun layihəsinin hazırlanması üçün işçi qrupu yaradılacaq



Milli Məclisin yaz sessiyası ərzində "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması üçün işçi qrupun yaradılması nəzərdə tutulur. SİA-nın məlumatına görə, bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli komitənin dünən keçirilən iclasında çıxış edərkən deyib. Onun sözlərinə görə, yaz sessiyası ərzində "Ümumi təhsil haqqında" qanun layihəsinin ikinci oxunuşdan keçsə, 3-cü oxunuşda müzakirəsi də nəzərdə tutulur: "Fevral-mart ayında "Ümumi təhsil haqqında" qanun layihəsi ikinci oxunuşdan keçsə, 3-cü oxunuş apreldə baş verə bilər. Apreldə isə "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması üçün iş qrup yaradacayıq". MM-in payız sessiyasında komitəyə bir çox müraciətlərin daxil olduğunu deyən İ.Həbibbəyli qeyd edib ki, bir çox müraciətlər tələbələrin ödənişi ilə bağlı olub. Komitə sədri əlavə edib ki, sosial müdafiəyə ehtiyacı olan tələbələrin təhsil haqqının ödənilməsi ilə bağlı müraciətləri qanunvericliyə uyğun şəkildə müsbət həll edilib.

# "Bəzən saytlarda haqq-nahaq müzakirələr açılır, müsbət işlər yaddan çıxır"



***"Milli Məclisin Əmək və sosial siyasət komitəsi payız sessiyasında 45 məsələni müzakirə edib, 21 qanun layihəsinin müzakirəsi Milli Məclisə tövsiyə edilib". SİA-nın xəbərinə görə, bu barədə komitənin sədri Hadi Rəcəbli məlumat verib.***

Müzakirə edilən layihələrin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldiyini deyən H. Rəcəbli ötən dövr ərzində komitəyə 648 sənəd daxil olduğunu açıqlayıb: "Bunların 579-u ərizə və şikayətlər olub ki, burada əsas məsələ ünvanlı sosial yardımla bağlı olub. Bu sahədə ölkə başçısının atdığı addımlar müsbət nəticəsini verir. Sistem elektronlaşdırılıb. Biz bəzən nöqsanların aradan qaldırılmasına kömək edirik. Pensiyaların həcmi ilə bağlı 135 müraciət daxil olub. Bəzi hallarda düzgün hesablanmayan pensiyalara sonradan obyektiv hesablanıb. Digər ərizələr müharibə və şəhid ailələrindən gəlib. Burada mənzil, nəqliyyat vasitəsi istəyi var. Son nəticədə məqsədimiz o insanların problemlərinin həllinə kömək etməkdir. 37 ərizə səhiyyə problemləri ilə bağlı bizə daxil olub. 366 nəfəri komitədə qəbul etmişik".

H. Rəcəbli qeyd edib ki, əsas məqsəd müraciət edən insanların problemlərini həll etməkdir: "Amma nə edəsən ki, bəzən saytlarda, sosial şəbəkələrdə haqq-nahaq müzakirələr açırlar, deputatların gördüyü müsbət işlər bəzi hallarda yaddan çıxır. Parlamentin Əmək və sosial siyasət komitəsi ən ağrılı problemlərlə məşğul olur, sosial durumu aşağı olan aztəminatlı qrup insanlarla işləyir. Məntiqli olaraq, problemlər də meydana çıxır. Bütün hallarda biz əhalinin qaldırdığı problem və məsələlərin həllinə müsbət yanaşırıq, eyni zamanda qayğı göstəririk və müraciətlərinə diqqətlə baxırıq. Prezident İlham Əliyevin mühüm sosial əhəmiyyət kəsb edən humanist təşəbbüsü ilə şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat birdəfəlik ödənişin verilməsinin icrası ilə bağlı bəzi problemlər ortaya çıxdı. Narazı insanların qarşısına çıxdıq, söhbət apardıq. Humanist söhbətlərimizə baxmayaraq, bəzi hallarda saytlar - heç adına müxalif də demək olmaz - bunu yanlış təqdim etdilər. Həmin saytlar bizim işimizi başqa formada çatdırmağa çalışırdılar. Milli Məclisin rəhbərliyinə təşəkkür edirəm ki, onlar gərgin məsələlərin həllində hər zaman bizim yanımızda olublar".

# Turizm iqtisadiyyatın əsas inkişaf dayaqlarındandır



***Bu gün ölkəmizdə tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyi zamanda, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülür. Son illər ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi dövlətin bu sahəyə diqqətini bir daha sübut edir.***

Müasir dövrümüzdə Azərbaycanın elə guşələri var ki, onları Avropanın bəzi abad zonaları ilə də müqayisə etmək mümkündür. Turistlər etdikləri səfər zamanı ölkəmizin ən gözəl, maraqlı, qədim və tarixi yerləri haqqında məlumatlandırılır. Həm Bakıda, həm də, ümumilikdə, ölkəmizdə tarixi və görməli yerləri ilə tanış olurlar. Yerli vətəndaşların, həm də xarici qonaqların ən çox üz tutduqları məkanlar sırasında Qobustan Milli Tarix-Bədii Qoruğu xüsusi yer tutur. Ötən il Qobustan Milli Tarix-Bədii Qoruğunu 123 mindən çox turist ziyarət edib. Qobustan qayaüstü rəsmlərini, minilliklərin daş yaddaşını görmək üçün buraya gələn ziyarətçilərin sayı 2017-ci illə müqayisədə 40 min nəfər (təxminən 50 faiz) artıb. 123 min ziyarətçidən 58 mini xarici ölkə vətəndaşlarıdır. Əcnəbi ziyarətçilər 20-dən artıq ölkədən - Türkiyə, İran, Rusiya, Almaniya, İngiltərə, Pakistan, Çin, ABŞ, İndoneziya, Qazaxıstan və ərəb ölkələrindən gəliblər. Bununla yanaşı, Fici adaları və Dominikan Respublikası kimi ölkələrdən də qoruğu ziyarət edənlər olub.









Qoruğa gələn ziyarətçilərə göstərilən xidmətin keyfiyyətinin daha da artırılması məqsədilə bir çox abadlıq işləri aparılıb. Qoruq daxilində asfalt yollar təmir edilib, istiqamətləndirici yol nişanları quraşdırılıb, Böyükdaş dağında yerləşən iaşə obyekti tamamilə yenidən qurulub.

Turistləri hər zaman cəlb edən məkana, son illərdə marağın daha da artmasının səbəblərindən biri də, burada yaradılan şəraitdir. UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən Qobustan qoruğunda 2011-ci ildə istifadəyə verilən muzey kompleksi müasir standartlara uyğundur. Onu da bildirək ki, kompleks "Avropada ilin muzeyi" müsabiqəsinin qalibi olub.

Xarici turistlərin paytaxtımıza səyahətləri zamanı, həmçinin, İçərişəhərə də önəm verirlər. 2018-ci ildə İçərişəhər ərazisində yerləşən çoxsaylı tarixi abidələrin qorunub-saxlanılması, bərpası və təbliği üçün genişmiqyaslı işlər həyata keçirilib, beynəlxalq səviyyəli turizm məkanının yaradılması istiqamətində əsaslı işlər görülüb. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün mövcud potensialdan səmərəli istifadə etməklə, beynəlxalq standartlara cavab verən turizm infrastrukturunun inkişaf etdirilməsi, tarixi irsimizə uyğun şəkildə təmir-bərpa və abadlaşdırma işlərinin davam etdirilməsi istiqamətində fəaliyyətini daha da təkmilləşdirib. Qeyd edək ki, xalqımızın milli bayramı olan və böyük maraq doğuran Novruz Festivalı, Qız Qalası Festivalı və digər ənənəvi tədbirlərin İçərişəhərdə yenidən - daha da maraqlı tərzdə həyata keçirilməsi nəzərdə tutulub.

## AZƏRBAYCAN TƏBİƏTİNDƏ KƏŞF OLUNMAMIŞ GÖZƏLLİKLƏR GİZLƏNİR

Bu gün müasir tikililər, müxtəlif restoranlar, ticarət mərkəzləri, Xəzər dənizi sahili, palçıq vulkanları, təbii parklar, gözəl təbiət, 9 fərqli iqlim tipi, Naftalanda müalicəvi neft və ən əsası təhlükəsizlik və müasir dünyagörüşlü insanlara malik olması kimi amillər Azərbaycanı mütləq ziyarət edilməli olan yerlər sırasına daxil edir. Azərbaycan təbiətində kəşf olunmamış gözəlliklər gizləndiyini qeyd edən F.Zenqstşmid ölkə boyunca gəzdikdə, hər an fərqli yeniliklərlə tanış olmaq şansından, eləcə də, dadlı Azərbaycan mətbəxindən bəhs edib. Baş icraçı direktor mühüm amillərdən biri də Azərbaycana səfər etməyin asan olmasını vurğulayaraq, hindistanlı turistlərin cəmi 3 saat ərzində, onlayn olaraq, viza əldə edə bilmə imkanına malik olduqlarını bildirib.

## AZƏRBAYCANDA YÜKSƏK İQTİSADİ, SOSİAL VƏ EKOLOJİ TƏLƏBLƏRƏ CAVAB VERƏN MÜASİR TURİZM FORMALAŞDIRILIB

Azərbaycanda turizm sahəsində yaradılan imkanlar dünya səviyyəsindədir. Turizmin sosial-iqtisadi inkişafda aparıcı qüvvəyə çevrilməsi gəlirlərin artmasında, sektorla bağlı infrastrukturun qurulmasında, yeni iş yerlərinin yaradılmasında özünü göstərir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları əsasında turizm sahəsi üzrə bəndlərinin tələbləri çərçivəsində sahibkarlığın inkişafı üçün kreditlər ayrılıb, turizm obyektlərinin inşasının dəstəklənməsi, bir sıra hüquqi sənədlərin hazırlanması sahəsində işlər görülüb. Hazırda bölgələrdə ən müasir səviyyədə hotellər tikilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Turizmin inkişafı ilə bağlı böyük addımlar atılmışdır. Xüsusilə, bölgələrdə bir neçə beşulduzlu otel istifadəyə verilmişdir. Yeni turizm mərkəzləri açılır. Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Əminəm ki, Azərbaycan vətəndaşları getdikcə daha çox ölkə daxilində istirahətə üstünlük verəcəklər. Çünki Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Bunu bizim vətəndaşlar da, xaricdən gələn turistlər də qeyd edirlər". Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir.

Azərbaycanda turizmin inkişaf tempi, onu deməyə əsas verir ki, ölkəmizdə davamlı inkişaf tendensiyası uğurla həyata keçirilmişdir. Hər bir turist istirahət etdiyi ölkənin və ya şəhərin təbliğatçısına çevrilir. Ona görə də, ən qabaqcıl beynəlxalq təcrübə əsasında iş qurulur, ən mütərəqqi ideyaları tətbiq edilir ki, turistlər ölkəmizdən və xidmətlərdən məmnunluq duysunlar. Ölkəmizin turizm sahəsində geniş imkanları ilə yanaşı, xalqımızın qonaqpərvərliyi, çoxmədəniyyətlilik və tolerantlıq dəyərlərinə hörməti də, turistlərin səyahət obyekti kimi, məhz Azərbaycanı seçməsi üçün əlavə meyardır.

**ZÜMRÜD**

# İşğalçılar təşviş içindədirlər

*Separatçılar Azərbaycanın uğurlarını, müvəffəqiyyətlərini və üstün mövqeyini həzm edə bilmirlər*

**Davos Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan və bir saat yarım davam edən qeyri-rəsmi görüş erməni politoloqlarının qıcıqlanması ilə nəticələnib. Ümumiyyətlə, bu görüş Ermənistan ictimaiyyətinin narahatlığına səbəb olub və əslində, narahatlığa əsas səbəb isə, məhz görüş üçün Paşinyanın təşəbbüs etməsidir. Erməni politoloqlar son zamanlar Paşinyanın Prezident İlham Əliyevlə planlaşdırılmamış görüşlərinin intensivləşməsindən, özü də beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərindən bərk qıcıqlanırlar. Məsələ burasındadır ki, onları qıcıqlandıran Paşinyanın Prezident İlham Əliyevlə planlaşdırılmamış görüşlərinin və müzakirələrinin əsas detallarının məxfi saxlanılmasıdır. Ermənistanın baş nazirinin məxfi saxladığı müzakirələr işğalçı ölkədə şübhə ilə qarşılanıb və ictimaiyyət bununla Paşinyana etibar etmədiyini də gizlədə bilmir.**

## Paşinyanın məxfi saxladığı görüş erməni cəmiyyətində əməlli-başlı rezonans doğurub

Ermənistana məxsus kütləvi informasiya vasitələrində bir sıra politoloqların fikirləri yeni baş nazirə etibar edilmədiyini təsdiq edir. Məsələn, politoloq Ayk Martirosyan Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyanın görüşünün heç də qeyri-rəsmi bir görüşə xas olmayan qədər davam etməsinə diqqət çəkməyə çalışır. Danışıqların tam məzmununun ictimaiyyətə açıqlanmamasına isə politoloq çox sərt reaksiya verir. Hətta işğalçı dövlətin baş nazirinə olan şübhələrini, inamsızlığını belə gizlətmir və ittiham etməkdən belə çəkinmir. Martirosyan məxfiliyin saxlanmasını Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Paşinyanın Ermənistanın ziyanına olan hansısa qərar verməyə hazırlaşması ilə əlaqələndirir. O, fikrini əsaslandırdığı zaman qeyd edir ki, əvvəlki illərdən fərqli olaraq, yəni indi Ermənistanda vəziyyətin dəyişməsi fonunda Paşinyanın bu məxfiliyi anlaşılan deyil.

"Prezident İlham Əliyevlə görüşün niyə baş tutduğu anlaşılan deyil. Axı bütün bunların Ermənistan üçün faydası nədədir" deyən politoloq, əslində, bütün erməni cəmiyyətinin, ələlxüsus, münaqişənin uzadılmasına maraqlı qüvvələrin narahatlığını ifadə etmiş olur. Onun fikrindən, açıq-aşkar şəkildə belli olur ki, bu görüşü işğalçı tərəf özü üçün faydalı hesab etmir. Daha dəqiq desək, münaqişənin həllinin sürətləndirilməsinə yönələn danışıqların, özü də məxfi danışıqların işğalçıların maraqlarına zidd olduğu gizlədilmir də. Yəni Paşinyanın Prezident İlham Əliyevlə belə bir görüşə təşəbbüs etməsinə tam açıq şəkildə narazılıq ifadə etmək, münaqişənin həllinə marağın olmadığını təsdiq edir və politoloq bu görüşə öz münasibətini bildirməklə bunu ifşa edir.

Ermənilərin guya ki, maraqlandıqları "Niyə şəffaflıq şəraitində bu şəffaflığın özünü görmürük" sualı isə, əslində, əldəqayırma demokratiyalarını, dırnaqarası şəffaflığı ifşa edən məqamdır. Məgər hansısa xalq, hansısa qonşu dövlət təhrik etmişdi Ermənistanı belə bir dırnaqarası demokratiyaya? Yoxsa Paşinyanı ermənilərə demokrat kimi kimsə təqdim etmişdi? Onu demokratiya gətirən, şəffaflıq yaradan, aydan arı - sudan duru kimi kim təqdim edirdi bütün dünya ictimaiyyətinə? İndi nə oldu və nə dəyişdi ki, "Paşinyanın gətirdiyi şəffaflıq və dırnaqarası demokratiya şübhə altına alınası oldu? Əslində, dəyişən heç nə yoxdur və işğalçılar əvvəlcə demokrat kimi qələmə verib, hakimiyyət kürsüsünü həvalə etdiklərinə etibarsızlıq etməklə, özlərini ifşa edirlər.

Digər tərəfdən, əgər erməni cəmiyyəti Paşinyana etibar etməyəcəkdisə, niyə onu meydanlardan, küçə nümayişlərindən düz hakimiyyət kürsüsünə qədər aparırdı. Yaxud əksinə, etibar



edib baş nazir postuna layiq bildikləri bu dırnaqarası xalq qəhrəmanına indi göstərilən etimadsızlıqlar nədir? Bütün bunlar bir-biri ilə təzad təşkil etmirmi və bu yalançı, əldəqayırma demokratiyanın, əslində isə, erməni cəmiyyətinin, işğalçılıq siyasəti yürüdənlərin əsl siması deyilmi?

## Davosda Paşinyanın ölkə başçımızla görüşünə görə erməni narahatlığı baş nazirin danışıqlarda məğlub olması qorxusudur

Göründüyü kimi, Paşinyanla Prezident İlham Əliyevin görüşləri, ələlxüsus, bu görüşlərin intensivliyi politoloq Ayk Martirosyanın simasında bütün işğalçı cəmiyyəti narahat edir. Tərəflərin müzakirələri münaqişənin həllini istəməyən separatçı qüvvələrin yuxusunu ərşə çəkir. İndi münaqişənin uzanmasında maraqlı olan qüvvələrin bütün bu proseslərə görə tikan üstündə oturduğu heç də gizli deyil və göz qabağındadır. Daha dəqiq desək, bu durum bəzi politoloqların dilində, özü də erməni KİV-lərində təzahür edir, özünü büruzə verir. Büruzə verir ki, Davosda Paşinyanın ölkə başçımızla görüşünə görə, erməni narahatlığı baş nazirin danışıqlarda məğlub olması qorxusudur.

Məsələ burasındadır ki, bir zamanlar Paşinyanı hakimiyyət kürsüsünə aparan, çevriliş etdikləri halda, bunu demokratiya kimi sırıyan qüvvələrin indi ondan umduqları maraqlarının, özü də separatçılıq maraqlarının müdafiəsidir. Erməni mətbuatı heç də sirr olaraq saxlamır və Paşinyanın Dağlıq Qarabağla bağlı danışıqlarda güzəştə gedəcəyindən, məğlub olacağından qorxduğu da etiraf olunur. Dəfələrlə bu mövzuya toxunduqları heç kim üçün sirr deyil və dünya ictimaiyyəti bunun da şahididir ki, Paşinyanın münaqişə ilə əlaqədar danışıqlarda məğlubiyyətlə üzləşəcəyi qorxusu işğalçı cəmiyyəti öz təsiri altına alıb. İndi Davosda Ermənistanın baş nazirinin Azərbaycan Prezidenti ilə görüşündən sonra işğalçı qüvvələrin daxilində yaranan narahatçılıq həmin qorxu atmosferinin təsiridir.

## Nəinki Paşinyan, hətta dünya çapında nüfuzlu siyasi liderlərin ölkə başçımızla hesablaşmaq məcburiyyətində olduqları günün reallığıdır

Əslində, işğalçı ermənilər əbəs yerə qorxuya düşməyiblər. Yəni nəinki Paşinyanın güzəştə gedəcəyini, hətta işğal altında saxladıqları və zəbt etdikləri Dağlıq Qarabağın da əllərindən gedəcəyini, artıq yəqin etdikləri üçün belə bir qorxu və narahatlıq hissi keçirirlər. Bu narahatlıq və qorxu hissi isə təsadüfi deyil. İşğalçılar Azərbaycanın uğurlarını, ölkə başçımızın apardığı məqsədyönlü və düzgün siyasəti çox yaxşı görürlər. Görürlər ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmiz hər bir sahədə dinamik inkişaf edir, beynəlxalq miqyasda çox böyük uğurlara imza atır və nüfuzu da günbəgün sürətlə artır.

Belə bir şəraitdə Azərbaycanın söz sahibinə çevrilməsi və nəinki Paşinyan, hətta dünya çapında nüfuzlu siyasi liderlərin ölkə başçımızla hesablaşmaq məcburiyyətində qaldıqları da günün reallığıdır. Bu reallıq təsdiq edir ki, Paşinyanın müzakirələrə qatılmaqdan boyun qaçıra bilməməsi, erməni işğalçılarının ümid etdiklərinin, arzuladıqlarının əleyhinə olaraq, güzəştlərə məcbur qalması, erməni baş nazirinin, erməni cəmiyyətinin məğlubiyyəti, başda Prezident İlham Əliyev olmaqla, bütövlükdə, Azərbaycanın qələbəsidir. İndi işğalçı cəmiyyəti narahat edən ölkə başçımızın timsalında ölkəmizin bir-birini əvəz edən uğurları, qələbələri və qələbə əzmində olmasıdır. Paşinyanı dəstəkləyən, indi isə hədəfə alanların aqressiyası, bu aqressiyanı gizlətməmələri təsdiq edir ki, işğalçılar təşviş içindədirlər və separatçılar Azərbaycanın uğurlarını, müvəffəqiyyətlərini və üstün mövqeyini həzm edə bilmirlər.

*İnam HACIYEV*

## Yevlaxda "Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu" mövzusunda tədbir keçirilib



Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev dövlət-din münasibətlərinin təməlinin Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və hal-hazırda da yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayaraq, dini icmalara dövlət tərəfindən maddi dəstəyin göstərildiyini və keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edib.

Tədbirdə çıxış edən YAP Yevlax şəhər təşkilatının aparat rəhbəri Əli Quliyev Azərbaycanda məscidlərin təmir, bərpa və inşasının dövlətin islam dininə verdiyi böyük dəyərin bariz nümunəsi olduğunu qeyd edib. Ə.Quliyev bütün dinlərin nümayəndələrinin inanclarına dövlət tərəfindən hörmət göstərildiyini bildirərək, bunun dünyada tolerant ölkə kimi tanınan Azərbaycanın öz milli və dini dəyərlərinə bağlılığının göstəricisi olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşı Vüsal Hüseynli Azərbaycan dövlətinin XX əsrdə ikinci dəfə müstəqillik qazanması və Ulu Öndər Heydər Əliyevin səyi ilə ideologiyamıza, milli və dini dəyərlər sistemimizə yeni müsbət baxışın formalaşdırıldığını bildirib. Keçirilən tədbirdə çıxış edən Yevlax şəhəri "Cümə" məscidinin imamı, Yevlax rayonu Ərəbbəsrə kənd məscidi dini icmasının sədri Nəsib Xəlilov və Yevlax rayonu Xaldan kənd "Cümə" məscidinin mütəvəllisi Elşən Osmanov dövlətin islam dininə və din xadimlərinə verdiyi dəyərdən bəhs edərək, bu müstəvidə keçirilən maarifləndirici tədbirlərinin mahiyyətini vurğulayıblar.

Tədbirin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

***R.HÜSEYNOVA***

## Məzarı tapılmayan azadlıq və repressiya qurbanlarının siyahısı hazırlanıb

AMEA-nın Mərkəzi-Elmi Kitabxanasında "Məzarı tapılmayan azərbaycanlı azadlıq və repressiya qurbanlarının siyahıları" mövzusunda tədbir keçirilib.

Tədbiri MEK-in direktoru, tibb üzrə fəlsəfə doktoru Leyla İmanova açaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə töhfə olaraq, rəhbərlik etdiyi müəssisə tərəfindən azadlıq və repressiya qurbanlarının siyahısının hazırlandığını söyləyib. O, hazırlanmış siyahının elektron kataloqa salındığını və Milli Rəqəmsal Yaddaş bazasına daxil edildiyini diqqətə çatdırıb. Siyahının hazırda açıq saxlanıldığını, gələcəkdə əlavələrin edilməsinin nəzərdə tutulduğunu deyən L.İmanova ictimaiyyəti, xüsusilə, Türkiyə və İranda təhsil alan həmyerlilərimizi bu məsələdə MEK-ə dəstək verməyə çağırıb.

Tədbir MEK-in Komplektləşdirmə bölməsinin rəhbəri Nazilə Həsənova hazırlanmış siyahıya dair təqdimatla çıxış edib. O, bolşeviklərin Azərbaycanda hakimiyyətinin ilk illərində insanların təqib və böhtanlara məruz qaldığını, AXC-nin yaradılmasında iştirak etmiş insanların repressiya qurbanlarına çevrildiyini, ziyalı, hərbçi və s. xadimlərinin Sibirə, Qazaxıstana, o cümlədən, digər yerlərə sürgün edildiyini, onların dəfn yerlərinin ictimaiyyətə məlum olmadığını vurğulayıb. Bölmə rəhbəri, bunu nəzərə alaraq, tədqiqatçıların yazılarından istifadə etməklə, həmin insanlar haqqında "Məzarı tapılmayan azərbaycanlı azadlıq və repressiya qurbanlarının siyahısı"nın hazırlandığını diqqətə çatdırıb. O, 546 nəfərlik siyahıda AXC dövründə təhsil almağa göndərilən tələbələr barədə məlumatların da yer aldığını və siyahının gələcəkdə genişləndiriləcəyini deyib.

***Zümrüd BAYRAMOVA***

# Britaniyalı araşdırmaçı yazar və jurnalistdən şok reallıqlar

*Harrold Keyn: "İnsan belə qeyri-adi, çoxsaylı cinayət əməlləri ilə rastlaşarkən, çətin ki, öz tərəfsizliyini qoruyub saxlasın"*







***Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ torpaqlarından narkotranzit kimi istifadə edilməsi, eləcə də, narko-plantansiyaların mövcudluğu barədə kifayət qədər müfəssəl məlumatlar, bu reallığı əks etdirən dəlil və sübutlar mövcuddur.***

O cümlədən, bir çox xarici ölkə araşdırmaçıları və jurnalistləri də sözügedən mövzu ilə bağlı çoxsaylı materiallar hazırlayıblar. Ümumiyyətlə, bu ərazilərdən narko-trafik kimi istifadə olunması, eləcə də, narkotika itehsalçılarının işğal altındakı torpaqlarımızda öz kirli bizneslərini reallaşdırmasını əks etdirən kifayət qədər yazılar və faktlar ictimailəşdirilib. Onlardan biri də Böyük Britaniyadan olan jurnalist, yazıçı-araşdırmaçı Harrold Keyndir. Dünyanın bir sıra qaynar nöqtələrini gəzən H.Keyn "Narco-Karabagh" (Narko-Qarabağ-R.R.) adlı araşdırmasında həmin ərazilərdə baş verən cinayətlər, xüsusilə, Qafqaz regionunun hüdudlarından uzaq sərhədlərə qədər gedib çıxan, beynəlxalq ictimaiyyətə öz dərin təsirini göstərəcək qədər cinayət kataloqlarını əks etdirən yazısı ilə çıxış edib.

Onu da qeyd edək ki, Keyn Qafqazda olduğu müddətdə həftələr boyu Ermənistana və Dağlıq Qarabağa səfərlər edib və özünü adi turist kimi göstərib. Məhz həmin vaxtlarda o, insan alveri, narkotik qaçaqmalçılığı qanunsuz silah ticarəti və sənaye masştablarında təbii resursların oğurlanması, talanması kimi çoxsaylı cinayətlərin şahidinə çevrilib. O, bu araşdırmalarını kitab halına salaraq, şok doğuracaq tapıntılarından geniş söhbət açıb.

Həmin kitabdan bəzi çıxarışları oxucuların diqqətinə çatdırırıq.

## Dağlıq Qarabağ: Ermənistan talanlar və narkotrafiklər üzərində necə yaşayır

"İnsan belə qeyri-adi, çoxsaylı cinayət əməlləri ilə rastlaşarkən, çətin ki, öz tərəfsizliyini qoruyub-saxlasın. Lakin mən cəhd edirdim, çalışırdım ki, soyuqqanlı olum. Dağlıq Qarabağ münaqişəsinin yaranmasına səbəb və bu münaqişənin Azərbaycanın ərazilərinin bir hissəsinin işğal olunması ilə nəticəsini tapması prosesi adi və normal etiraz aksiyası ilə başlamışdı və sonra...

## "Sonra hər şey qanlı-qadalı müharibəyə çevrildi. Ermənistanın indi də mövcud olduğu cəhənnəmə"

Beləliklə, yuxarıda qeyd edilənlərlə yanaşı, Ermənistanın mövcud və ağır vəziyyətə düçar olmasının səbəblərinə də toxunan müəllif, əslində, bütün həqiqətləri tam çılpaqlığı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmış olub.

H.Keynin "Narko Qarabağ" adlı kitabı onun müfəssəl araşdırmalarının, gəldiyi qə-



naətlərinin nəticəsidir. Müəllif, həqiqətən də, Ermənistanda az zaman keçirməyib və onun məqsədi Qarabağ narkotranzitinin səbəblərini araşdırmaqdan ibarət olub. Son olaraq isə. Həmin kitabdan, o da bəllidir ki, Keyn araşdırmalarında Qarabağ xuntası (separatçılar nəzərdə tutulur - R.R.) və Ermənistan rəhbərliyi tərəfindən törədilmiş tükənməz cinayətləri işıq üzünə çıxarıb.

**RÖVŞƏN RƏSULOV**

# AzerTelecom Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir

Hazırda 4-cü sənaye inqilabı şəraitində dünya ölkələrində iqtisadiyyatın rəqəmsallaşması və sürətli transformasiyası prosesləri gedir. Son 25 il ərzində aparılan fəaliyyətin nəticəsi olaraq regionun enerji və nəqliyyat mərkəzinə çevrilmiş Azərbaycan da artıq 4-cü sənaye inqilabının astanasındadır və iqtisadiyyatın rəqəmsallaşması, bilik iqtisadiyyatının qurulması və innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi və ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində son illər bir sıra mühüm layihələr icra edilir. Hazırda Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə şirkəti olan AzerTelecom Azərbaycanın regionun "Rəqəmsal Məkəz"inə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramının icrasına başlayıb.

## Azerbaijan Digital Hub proqramının əsas hədəfləri

"Azerbaijan Digital Hub" proqramının əsas hədəfi Azərbaycanın telekommunikasiya ekosisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə qalxması, ölkənin İnternetin alışında xarici ölkələrdən asılılığının minimuma endirilməsi, perspektivdə isə Azərbaycanın regionda İnternetin satışında mərkəzi ölkəyə çevrilərək, rəqəmsal xidmətlər idxal edən tərəfdən "Made in Azerbaijan" brendi altında bu xidmətləri istehsal və qonşu regionlara ixrac edən ölkəyə transformasiya olunmasıdır.

"Azerbaijan Digital Hub" proqramı çərçivəsində Azərbaycanın gələcəkdə Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənub Asiya ölkələrini əhatə edən böyük bir regionun Rəqəmsal Mərkəzinə çevrilməsi bu regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisinin 1/4-i) müxtəlif rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsinə şərait yaradacaq. Ölkəmizin regionda İnternetin təkcə tranzitində deyil, həmçinin də satışında mərkəzi ölkəyə çevrilməsi isə dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam və Dubay kimi İnternet Mərkəzləri ilə yanaşı Bakının da əlavə olunması deməkdir. Bu proqram həmçinin Rəqəmsal Mərkəzdə dünya brendlərinin (Apple, Google, Amazon, Alibaba, Facebook, Netflix və s.) cəmləşməsinə də şərait yaradacaq.

"Azerbaijan Digital Hub" proqramı nəticəsində Azərbaycanın Regionun Rəqəmsal Mərkəzinə çevrilməsi hazırda Çin hökumətinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" layihəsində Azərbaycanın da iştirakına töhfə verəcək. "Belt and Road Initiative" layihəsi Avropa, Asiya və Afrika ölkələrində infrastruktur inkişafı, investisiya yatırımlarını özündə ehtiva edir ki, Azərbaycanda "Rəqəmsal Mərkəz" kimi "Belt and Road Initative" qlobal layihəsinin bir hissəsinə çevrilir.

"Azerbaijan Digital Hub" proqramının reallaşması nəticəsindəŞimal-Cənub, Şərq-Qərb istiqamətlərində olan böyük magistral fiber-optik şəbəkələr Azərbaycanda birləşəcək. Dünyanın qlobal tranzit magistral şəbəkələrinin Azərbaycanda kəsişməsi ilə yanaşı Azərbaycanda bu regionun ən böyük Data Mərkəzi də qurulacaq. AzerTelecom artıq"Azərbaycan Dəmir Yolları" QSC ilə birgə ölkə daxilində dəmiryol xətlərinin mühafizə zolağı boyunca yeni dayanıqlı magistral fiber-optik kabel infrastrukturunun tikintisinə başlayıb vəmüvafiq investisiya qoyuluşları həyata keçirilib. Bu imkan verir ki, Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində olan magistral xətlərin Azərbaycanda kəsişməsi reallaşsın.

## Proqram mühüm üstünlüklərə sahibdir

"Azerbaijan Digital Hub" proqramının ölkəmiz üçün mühüm üstünlükləri vardır. Yuxarıda qeyd olunanlarla yanaşı bu üstünlüklər həmçinin ondan ibarətdir ki, dövlət investisiyası cəlb olunmadan ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanlar yaranacaq, regionda rəqəmsal logistik mərkəz qurulacaq, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinə və onun inkişafına güclü təkan verilməklə rəqəmsal iqtisadiyyata töhfə veriləcək. Proqramın icrası elektron xidmətlərin inkişafına və ölkənin kiber-təhlükəsizliyinin təmin edilməsinədə töhfə verəcək.

Həmçinin "Azerbaijan Digital Hub" proqramı çərçivəsində rəqəmsal sahədə yeni iş yerləri yaranacaq,hər-hansı intellektual beyinlərin axınının qarşısının alınması və xaricdə olan savadlı Azərbaycanlı mütəxəssislərin geri dönüşü üçün yeni imkanlar açılacaq və Azərbaycanda startapların inkişafı və onların ölkədə qalması üçün münbitbir ekosistem formalaşacaq. Proqram həmçininkiçik və orta sahibkarlığın inkişafına və Azərbaycanda Rəqəmsal İqtisadiyyatın inkişafına töhfə verəcək.

# Bakcell və Premium Bank arasında əməkdaşlıq memorandumu imzalanıb




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti və ölkənin ən nüfuzlu banklarından biri olan Premium Bank arasında əməkdaşlıq memorandumu imzalanıb. SİA xəbər verir ki, maliyyə və bank sektorunda "Bakcell"in ən böyük korporativ abunəçilərindən biri olan "Premium Bank"la imzalanmış sənəd tərəflər arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə qarşılıqlı fəaliyyətin təşkili və müxtəlif sahələrdə birgə layihələrin icra edilməsini nəzərdə tutur.

Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers və "Premium Bank"ın Müşahidə Şurasının sədri Elçin Əhmədov tərəfindən imzalanan əməkdaşlıq memorandumu çərçivəsində tərəflər telekommunikasiya və bank sahəsində birgə məhsul və xidmətərin təqdim olunması imkanlarını müzakirə ediblər.

Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. Bakcell ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətləri ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. "Bakcell"in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. Bakcell özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatının və ümumi biznes sektorunun inkişafına töhfə verir.

# Əli Kərimlinin Sarkisyandan və Koçaryandan fərqi yoxdur

***Qondarma bloger Mehman Hüseynov məsələsinə son qoyulsa da, dağıdıcı müxalifət partiya sədrləri və xarici maraqlı dairələr hay-küy kampaniyalarını davam etdirməkdədirlər. Hətta "Milli Şura" uğursuzluqla nəticələnən 19 yanvar mitinqindən dərs götürməyərək, növbəti aksiyalar keçirmək iddiası ilə çıxış edirlər. Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin müstəqil fikrə malik olmadığını və onları müxtəlif qanunsuz əməllər törətməyə, aksiyalar keçirməyə təhrik edən maraqlı dairələrin olduğunu bildirdilər.***

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: **"Müxalifət çox pis durumdadır"**



- Müxalifətin 19 yanvar mitinqi, həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa düçar oldu və istədikləri nəticəni vermədi. Xaricdən verilən sifariş əsasında ətrafında vay-şivən qopardıqları məhbus Mehman Hüseynovun cinayət işinə ölkə Prezidenti tərəfindən humanistcəsinə xitam verilməsi isə, müxalifəti çox pis duruma saldı. Bu cür uğursuz nəticəyə baxmayaraq, müxalifətin yenə də mitinq keçirmək istəyi, hər şeydən əvvəl, ölkədə hay-küy salmağa, sabitliyi pozmağa, qanun pozuntusuna görə saxlanılan mitinq iştirakçılarını bəhanə gətirərək, xaricdəki ağalarının vasitəsi ilə ölkəmizə qarşı əsassız ittihamlar uydurulmasına şərait yaratmaq məqsədi güdür. Ona görə də, müxalifətin bu cür lüzumsuz, sabitliyi pozmağa xidmət edən mitinqlərinin keçirilməsinə icazə verərkən, bunları nəzərə almaq lazımdır.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-in sədri Anar Xəlilov: **"Xalq müxalifəti cəzalandıracaq"**

- Son hadisələr, onu deməyə əsas verir ki, müxalifət, sadəcə, Mehman Hüseynov ətrafında baş vermiş hadisədən yararlanmağa çalışaraq, dirilməyə cəhd kimi atdıqları yeni şou səhnəsi idi. Mehman Hüseynov adı altında artıq çoxdan idi ki, xarici təşkilatların dəstəyi ilə sosial şəbəkələrdə gənclər arasında çaşdırıcı təxribat xarakterli fəaliyyət gedirdi. Məhz bu xarici anti-Azərbaycan qurumlarının daha da aktivləşərək, təzyiq metodlarına keçmələri bunları məcbur etdi ki, aldıqları maliyyənin təsiri ilə mitinq təşkil etsinlər. Mitinqlərinin də şuarı Mehman Hüseynovla bağlı oldu. Lakin Mehman Hüseynovun Prezidentə məlum müraciətindən sonra ölkə başçısının buna dərhal reaksiya verib, humanist addım ataraq müvafiq qurumlara göstəriş verməsi və başlanılan cinayət işinə barışıq yolu ilə xitam verilməsi bunların növbəti şou proqramlarını alt-üst etdi. Bunlar, Mehman Hüseynov həbs olunanda və ötən iki ildə niyə belə canfəşanlıq etmirdilər? Çünki bunlar heç vaxt tapşırıqsız addım atmırlar. Nə vaxt ki, Azərbaycana qarşı xarici təzyiq kampaniyaları işə düşür, o zaman da bunlar aktivləşirlər. Bu zaman istər Mehman olsun, istərsə də başqa birisi və ya hansısa şər-böhtan, fərq etməz, tapşırıq alan kimi hərəkətə keçirlər. İndi isə hər şey Azərbaycan xalqına daha aydın məlumdur. Niyə Mehman Hüseynov hadisəsi belə qabardılır? Niyə xaricdən təzyiqlər ard-arda davam edir? Ona görə ki, artıq Azərbaycan dünya birliyinə Ermənistanın işğalçı olmasını sübut etmişdir. Artıq dünya birlikləri, aparıcı siyasətçilər etiraf edirlər ki, Azərbaycan əraziləri işğal olunub və erməni silahlı qüvvələri bu ərazilərdən çıxmalıdır. Prezident İlham Əliyevin ordu quruculuğu sahəsindəki nailiyyətləri də göz qabağındadır. Artıq Azərbaycan Ordusu əmr gözləyir və torpaqları azad etməyə tam hazırdır. Erməni və havadarları da bunu görür və əmindilər ki, tezliklə Azərbaycan Ordusu əməliyyata başlayacaq. Bunun da qarşısını almaqda acizdilər. Belə vəziyyətdən çıxış yolu isə Azərbaycanı daxildən qarışdırmaq və vaxt qazanmaqdır. Necə ki, buna ötən əsrin 90-cı illərində nail olmuşdular. Lakin Azərbaycan xalqı artıq bu dərsi alıb, xalq ayıqdır və bu cür təxribatlara getməyərək, əksinə, ona qarşı mübarizədə daha əzmlidirlər. İstər növbəti təzyiqlər olsun, istərsə də hər hansı mitinqlər, xalq öz dövlətinin və prezidentinin yanındadır. Bütün cəhdlər uğursuzluğa düçar olacaq. Mən sosial şəbəkələr vasitəsilə xaricdə olanlarla birlikdə burada çaşdırılan bəzi gənclərimizə səslənirəm: təxribatlara və hər hansısa çağırışlara uymayın, əmin edirəm ki, sizləri aldatmağa çalışaraq, öz qara planlarında istifadə etməyə çalışırlar. Siz bu ölkənin vətəndaşı olaraq, əsgər olaraq onun inkişafında və tezliklə Qarabağın azad olunması əməliyyatlarında iştirak edəcək qəhrəman vətən övladlarısız. Bu gün Azərbaycanın hər sahədə güclü mövqeyini sarsıtmağa xidmət edən bütün hərəkətləri qətiyyətlə pisləyirəm. Hər birimiz bu gün Azərbaycanda yaradılan stabilliyi qorumalıyıq.



### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: **"Əli Kərimli içi çürük qoza bənzəyir"**



- Müxalifət üçün ya Mehman Hüseynovun ya da hansısa onların siyasi məhbus adlandırdığı digər adamların həyatı maraqlı deyil, eyni zamanda, müxalifət üçün Azərbaycanın taleyi də maraqlı deyil. Müxalifət üçün maraqlı olan hansı formadasa fon yaratmaq və xaricdəki maliyyə mərkəzlərindən pul qoparmaqdır. Müxalifət düşərgəsini təmsil edən şəxslərin bir marağı var, o da xarici "ağalarına" xidmət etmək və qarşılığında boş qalan ciblərini doldurmaqdır. Dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslər xaricdə olan havadarlarının qarşısında özlərini reklam etmək üçün Azərbaycan haqqında reallığı özündə əks etdirməyən fikirlər səsləndirmələri, ilk növbədə, mənəviyyatsızlığın nümunəsidir. Birmənalı şəkildə demək olar ki, müxalifət təmsilçiləri hər bir işi pul qarşılığında görür. O cümlədən də, müxalifətin aksiyalar keçirməsinin arxasında maddi maraq durur. AXCP sədri Əli Kərimli xarici maraqlı dairələrin sifarişini yerinə yetirmək üçün dəridən-qabıqdan çıxır. Demək olar ki, AXCP sədri xarici qüvvələrin əlində bir oyuncağa çevrilib. Amma Ə.Kərimli bir çürük qoza bənzəyir. O və onun kimi xarici təşkilatların tör-töküntüləri heç zaman çirkin niyyətlərini reallaşdıra bilməyəcəklər. Azərbaycan güclüdür, xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir.

***GÜLYANƏ***

# "REAL" Əli Kərimlinin mitinq-şousuna qatılmayacaq

*İlqar Məmmədov gec də olsa, səhvini anladı*



Məlum olduğu kimi, AXCP sədri Əli Kərimli ötən həftə "Məhsul" stadionunda keçirilən mitinqi "birləşmiş müxalifətin aksiyası" kimi qələmə verərək, sonradan bu mitinqin "əsas gücü" kimi AXCP-nin olduğunu aksiya iştirakçılarına sırımağa çalışdı. Halbuki o, daha öncə, bənzər fikirlərlə çıxış etmirdi, insanları aksiyaya cəlb etmək üçün bu kimi siyasi dələduzluq manevrindən uzaq dayanmışdı. Mitinqin gedişində, eləcə də, sonrasında isə digər siyasi partiyaların rəhbərləri tərəfindən aşkar edildi ki, cəbhəçilərin sədri onlardan öz maraqları üçün istifadə edib. Hətta iş o yerə çatdı ki, "Milli Şura"nın sədri Cəmil Həsənlinin belə, adı çəkilməyən mitinqin, daha dəqiqi isə, Ə.Kərimlinin əsas məqsədləri üzə çıxmağa başladı.

### "REAL"-çılar "kollektiv şura" əsaslanan qərarlarını veriblər - "Əli Kərimlinin aksiyalarına qatılmayacağıq..."

Artıq bir sıra partiyaların növbəti aksiyaya qatılmayacaqları da məlum olmağa başlayıb. Xüsusilə, bundan öncəki mitinqlərə qatılmayacaqlarını dəfələrlə bəyan etmiş, lakin öz sözlərinə xilaf çıxaraq, ötən həftədəki mitinqə qatılmış "REAL"-çılar növbəti aksiyaya dəstək verməyəcəklərini bildiriblər. Partiyanın sədri İlqar Məmmədov təşkilatdaxili iclas keçirərək, özlərinin də iddia etdikləri kimi, "kollektiv şura" əsaslanan qərarlarını veriblər - "Ə.Kərimlinin aksiyalarına qatılmayacağıq..."

Çox yəqin ki, ötən mitinqdə iki cümləni bir araya sığışdıra bilmədiyini açıq-aydın sərgiləyən İ.Məmmədov onun qısa və məntiqsiz çıxışından sonra aksiya iştirakçılarının uzağı iki ağız, "İlqar bəy!" şüarı çağırmalarından da pəjmürdə olub. Ümumiyyətlə, "REAL" sədri də daxil olmaqla, digər müxalifətçi partiya mənsublarının çıxışlarına deyil, diqqətin, bilavasitə Ə.Kərimliyə yönləndirilməsi planı öz işini gördü.

### İskəndər Həmidov da bənzər qərar verəcək

Əbəs deyil ki, "REAL"-la yanaşı, daha bir neçə siyasi qurum qarşıdakı aksiyaya qoşulmayacaqlarını bu və ya digər şəkildə bəyan etməkdədirlər. Məsələn, xatırlaya bilərik ki, bir müddət əvvəl, "Zirvə toplantısı" adı altında müxalifət partiyalarını bir araya gətirməyə çalışan AMDP sədri İskəndər Həmidovun həmin çağırışlarına nə Müsavat, nə də AXCP müsbət cavab verməmişdilər. Lakin buna baxmayaraq, o, Ə.Kərimlinin mitinqinə qatılmaq qərarını vermişdi. Ancaq bəlli məsələlərdən sonra onun da aksiyaya getməyəcəyi barədə müəyyən ifadələr səslənməkdədir.

Bütövlükdə isə, mitinqdəki saxta tələblər və s. çağırışlardan sonra düşərgə ciddi çaxnaşma ərəfəsindədir - hədəf isə Ə.Kərimlidir. Necə deyərlər, özünü "birləşmiş müxalifətin lideri" kimi sırımağa çalışan AXCP sədri özü-öz quyusuna düşdü. Hər halda, növbəti aksiyasında bütün bunların şahidləri olacağıq...

***Rövşən RƏSULOV***



# Həyasızlığın min sifəti

*Və ya "Milli Şura"nın alışdığı fiasko, yoxsa...*

***10-dan artıq siyasi qurumun təşkilatçılığı ilə yanvarın 19-da keçirilən mitinq bundan öncəkilər kimi uğursuz və sönük alındı.***

Mitinqlə bağlı sosial şəbəkələr vasitəsilə təbliğat aparan dağıdıcı düşərgə təmsilçilərinin piketə oxşayan mitinqinə azsaylı tərəfdarlarının qatılması partiya sədrlərini biabırçı duruma saldı. Hər dəfə olduğu kimi, bu dəfə də mitinq xaotikliyi, təşkilatçıların zəifliyi və sistemsizliyi ilə yadda qaldı. Bu biabırçı uğursuzluğuna baxmayaraq, sosial şəbəkələrdə həyasızcasına yanvarın 26-da planlaşdırdıqları mitinq çağırışı etməkləri, doğrudan da həyasızlıq və mənəviyyatsızlıqdır. Bu yerdə atalar düz deyib: utanmasan, oynamağa nə var ki... Bir də qozbeli qəbir düzəldər. Ancaq bu dağıdıcı müxalifət o qədər üzləri sürtülüb ki, onların düzəlməsi müşkül məsələdir. Elə buna görə də, "Milli Şura"nın təyin etdiyi icazəli mitinqə vətəndaş axını olmadı. 1500-2000 nəfərlik bir artım vardı. 19 yanvarda rezonans doğurmaq üçün bloger Mehman Hüseynov məsələsini irəli sürməklə, nəyəsə nail olmaq istədilər, ancaq sonda pat vəziyyətində qaldılar.

Dövlət başçısının M.Hüseynovun işinin obyektiv və ədalətli araşdırılması ilə bağlı verdiyi tapşırıq satqın müxalifət "liderləri"nin əlindən çıxdı.

### Yenə "şəriksiz liderlik" iddiaları...

Uğursuzluqla nəticələnən 19 yanvar mitinqindən öncəki çağırışlarda on minlərlə insanın qatılacağı vəd edilsə də, meydana cəmi 2800 nəfər gəldi. Dəyişməyən digər bir şey yenə mitinqdə çıxış edənlərin ənənəvi vədləri və mənasız fikirləri idi. Çıxış edən təxminən 10 nəfər yenə əsassız ittihamlar irəli sürüb, heç bir real təklif səsləndirmədi.

Tribunanı ölkənin heç bir ziyalısı ilə paylaşmayan AXCP sədri Əli Kərimli mitinqdəki çıxışında özünü "uğurlu mitinqin" tək təşkilatçısı kimi qələmə verib, müxalifətin tək şəriksiz lideri sayaraq, kütləyə inanılmaz "vədlər" verib. Digər partiyaların rəhbərlərinin aksiyaya qatılmamasından istifadə edərək, mitinqi təkbaşına təşkil etdiyini deməsi ilə, elə əsl məqsədini də ortaya qoydu. Meydana yığışan az sayda adam da bu mənasız tapdalogiyadan bezərək, oranı tərk edib.

Nəticə isə dəyişmədi. Uzun müddətdir ciddi hazırlıqların getdiyi 10-dan artıq siyasi qurumun iştirakı ilə keçirilən aksiya yenə uğursuz oldu. Belə olan halda, uzunmüddətli çağırışlar və təbliğat müqabilində, "Məhsul" stadionunu belə doldura bilməyən radikal düşərgənin yenidən alışdığı növbəti fiaskonu yaşamağı reallıqdır. Belə olan halda, heç bir sosial bazası olmayan dağıdıcı müxalifət bezdirici boş vədləri ilə tək-tük tərəfdarlarını da itirəcəyi dağılan tifaqın tam süqutu olacaq.

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev insan hüquq və azadlıqlarının təminatçısıdır

***Azərbaycan Prezidenti İlham Əliyev demokratikləşməyə, insan hüquq və azadlıqlarının təminatına xidmət edən islahatların davam etdiriləcəyini, bu istiqamətdə ardıcıl və sistemli tədbirlərin həyata keçiriləcəyini vurğulamışdır. "Siyasətimizin əsasında insan amili dayanır" - deyən dövlət başçısının həyata keçirdiyi islahatlar tam mahiyyəti ilə vətəndaşların qanuni maraq və mənafelərinin təminatına yönəlmişdir. Bu ümdə məqsəd önə çəkilməklə, ötən müddətdə, gerçəkləşdirilən hüquqi-siyasi islahatların mühüm bir istiqamətini də məhz məhkəmə və ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi yeni dövrün tələblərinə uyğunlaşdırılması olmuşdur. Bu istiqamətdə ən mühüm addımlardan biri də 2004-cü ildə "Məhkəmə-Hüquq Şurası haqqında" qanunun qəbulu və həmin qanun əsasında Məhkəmə-Hüquq Şurasının yaradılması olmuşdur. Demokratik cəmiyyətlərdə mühüm yer tutan bu təsisatın yaradılmasında əsas məqsəd məhkəmələr və hakimlər arasında yeni qurum yaratmaqla məhkəmə" sisteminin müstəqilliyini, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirmək olmuşdur.***

Hüquq elmləri doktoru İsaxan Vəliyev yazır: "Müasir dövrdə məhkəmə orqanlarının fəaliyyətinin səmərəliliyinin mühüm amillərindən biri, şübhəsiz, onların seçimi prosesinin şəffaflığı və obyektivliyidir. Təsadüfi deyildir ki, dövlət başçısının 19 yanvar 2006-cı il tarixdə imzaladığı Azərbaycan Rcspublikasında məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı Fərmanında Məhkəmə-Hüquq Şurasına tövsiyələrdən biri də, məhz məhkəmələrdə hakimlərin sayının artırılması ilə bağlı olmuşdur. "Məhkəmə-Hüquq Şurası haqqında" və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, Məhkəmə-Hüquq Şurası tərəfindən təsis olunmuş Hakimlərin Seçki Komitəsinin fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Ölkə başçısının müvafiq fərmanları ilə hakim ştatlarının sayı son 10 ildə 2 dəfədən çox artırılaraq, 600-ə çatdırılmışdır.

Son illər hakimlərin müstəqilliyinin artırılması məqsədilə onların təyinat müddətinin artırılması istiqamətində də mühüm addımlar atılmışdır. Belə ki, əvvəllər hakimlər birinci instansiya məhkəmələrinə 5 il, yuxarı instansiya məhkəmələrinə 10 il müddətinə təyin edilirdilər. Məhkəmə-Hüquq Şurası tərəfindən aparılan məhkəmə islahatları nəticəsində, artıq hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə, seçim prosedurları təkmilləşdirilmişdir.

İnsan hüquq və azadlıqlarının təminatı baxımından məhkəmələrlə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi də diqqət mərkəzində olmuşdur. Azərbaycan Respublikası Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanı əsasında bölgələrdə regional ədliyyə idarələri və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə, regionların sosial-iqtisadi inkişafına xidmət etmişdir".

İ.Vəliyevin fikrincə, Azərbaycanda cəzaların icrası siyasətinin təkmilləşdirilməsində, humanizm prinsiplərinin bərqərar olmasında, insan hüquqlarının dövlət qurumları ilə yanaşı, eyni zamanda, vətəndaş cəmiyyəti institutları tərəfindən də qorunmasında, bu sahədə faydalı ictimai təşəbbüslərin irəli sürülməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır. İndiyə qədər Mehriban xanım Əliyevanın irəli sürdüyü 4 Amnistiya Aktı layihəsi əsasında minlərlə məhbus həyatın ən böyük nemətlərindən olan azadlığa qovuşmuş, cəmiyyət onları normal fərdlər kimi yenidən qazanmışdır.

2017-ci ildə Azərbaycan Respublikasında məhkəmə icraatında nümayəndəlik institutunun iştirak dairəsinin qismən məhdudlaşdırılması, vətəndaşlara yüksək keyfiyyətli, peşəkar hüquqi yardımın göstərilməsi üçün "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda vəkilliklə bağlı müvafiq dəyişikliklərin edilməsi haqqında" Prezident tərəfindən irəli sürülmüş qanun layihələri Milli Məclisin müzakirəsinə təqdim edilmiş və qəbul edilmişdir.

Son 15 ildə Azərbaycanda hüquqi dövlət quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətində korrupsiyaya qarşı mübarizə, aşkarlıq və şəffaflığın təmin olunması tədbirləri də xüsusi yer tutur. Ölkənin sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində müxtəlif kateqoriyadan olan məmur təbəqəsinin və digər vətəndaşların sosial rifah tədbirlərinin genişləndirilməsi, qanunçuluğun gücləndirilməsi və ictimai maarifləndirmə yolu ilə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri xüsusi diqqətdə saxlanılmışdır.

Korrupsiyanı sosial-iqtisadi inkişafı əngəlləyən buxov hesab edən Prezident İlham Əliyev fəaliyyətinin ilk vaxtlarından bu ümumbəşəri sosial bəlaya qarşı səmərəli tədbirlərə başlamış, 13 yanvar 2004-cü il tarixdə "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunu imzalamışdır. Qanun əsasında Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər) layihəsi hazırlanaraq, Azərbaycan Prezidentinin 3 sentyabr 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Prezidentinin 28 oktyabr 2004-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əsasnaməsi təsdiq olunmuş, bu qurumun səlahiyyət və funksiyaları müəyyən edilmiş, qısa müddətdə korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətli nəticələr əldə edilmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması korrupsiya və digər neqativ halların aradan qaldırılmasına xidmət edən mühüm addım olmuşdur. Korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını həyata keçirən Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın formalaşdırılması da ciddi islahatlardan biri kimi vurğulanmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə" 28 iyul 2007-ci il tarixli Fərmanı ölkədə şəffaflığın təmin olunması və korrupsiyaya qarşı mübarizə tədbirlərinin davamlı xarakter daşıdığını təsdiqləmişdir. Strategiya Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, əldə edilmiş nailiyyətləri möhkəmləndirməyə, eləcə də, dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulmasına xidmət etmişdir.

Sonrakı mərhələdə dövlət başçısının 2012-ci il 5 sentyabr tarixli sərəncamları ilə "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı"nın təsdiqi, 2010-cu ildə "Elektron Azərbaycan" Dövlət Proqramının qəbulu, 2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanın imzalanması, dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin təşkili, vahid elektron hökumət portalının (www.c-gov.az) yaradılması şəffaf və açıq cəmiyyət quruculuğu yolunda inamlı addımlar olmuşdur.

İ.Vəliyev daha sonra yazır: "Dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsi məqsədilə 2012-ci ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis edilməsi, qurumun nəzdində "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanın dövlət idarəetmə sistemində inqilabi dəyişiklikləri təmin etmişdir. Hazırda Azərbaycanın milli brendinə çevrilmiş "ASAN xidmət" bütün dünyada mütərəqqi model kimi öyrənilir və bəzi ölkələrdə tətbiqi istiqamətində addımlar atılır.

Milli Məclisdə keçirilmiş andiçmə mərasimində dövlətimizin başçısı şəffaflığa və hesabatlığa əsaslanan siyasətin bundan sonra davam etdiriləcəyini vurğulamışdır: "Bu illər ərzində Azərbaycan intellektual məhsulun ixracatçısına çevrilibdir. "ASAN xidmət" artıq başqa ölkələrdə tətbiq olunur, bizim təcrübəmiz öyrənilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab idi. Bu, sosial layihədir. Çünki bu layihə insanlara xidmət göstərir...

Bu, bir daha bizim niyyətimizi və siyasətimizi göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk".

2016-cı ildə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" da şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə baxımından mühüm vəzifələr müəyyənləşdirir.

Müstəqil Azərbaycan insan hüquq və azadlıqlarına dair çoxsaylı beynəlxalq müqavilələrə tərəfdar çıxaraq, yurisdiksiyası daxilində insan hüquq və azadlıqlarının təmin edilməsi öhdəliyini üzərinə götürmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənmiş milli fəaliyyət proqramları bu baxımdan, xüsusilə, əhəmiyyətli olmuşdur. Konkret olaraq 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncam ölkədə insan hüquq və azadlıqlarının təin edilməsi istiqamətində daha qətiyyətli və prinsipial addımların atılmasına imkan yaratmışdır. Sərəncamda Azərbaycan Respublikasının normativ- hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilmişdir".




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

"Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamda, həmçinin, Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına, məhkəmələrinə və Baş Prokurorluğuna normativ-hüquqi aktların təkmil tətbiqi zamanı insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi tövsiyə olunurdu. Ümumilikdə, sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Dövlət başçısının müvafiq fərman və sərəncamları ilə 18 iyun tarixinin "İnsan Hüquqları Günü" elan olunması, eyni zamanda, Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına və KİV-ə dövlət dəstəyi konsepsiyalarının imzalanması dövlət dəstəyi mexanizmlərinin müəyyən olunması bu istiqamətdə mühüm addımlar olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı" bu istiqamətdə islahatların keyfiyyətcə yeni mərhələdə uğurlu davamına təminat yaratmışdır. 6 fəsil və 75 bənddən ibarət Milli Fəaliyyət Proqramı normativ-hüquqi bazanın təkmilləşdirilməsi; əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi; dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi; insan hüquqları sahəsində tədris; elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi; insan hüquqları sahəsində beynəxalq təşkilatlarla əməkdaşlıq; Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi; monitorinqi və qiymətləndirilməsi kimi vəzifələrin həlli istiqamətində mühüm tədbirləri özündə ehtiva edir.

Milli Fəaliyyət Proqramında dövlətin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətinin konsepsiyası müxtəlif istiqamətlər üzrə müəyyən olunmuş, həmçinin, həyata keçiriləcək tədbirlərin icrası, əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi mexanizmi göstərilmişdir. Belə ki, sənəddə qanunvericilik aktları qəbul olunarkən, insan hüquqları meyarının rəhbər tutulması, Azərbaycan Respublikasının insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbulu, korrupsiya ilə mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, əhaliyə göstərilən elektron xidmətlərin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, sənəddə bu tədbirlərin vətəndaş cəmiyyəti institutları və media ilə sıx əməkdaşlıq müstəvisində həyata keçirilməsinin vacibliyi önə çəkilmişdir.

**Vahid Ömərov,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# səs

Son səhifə 25 yanvar


## “Nar” abunəçiləri “WhatsApp”-dan pulsuz istifadə edir

Ölkənin ən gənc və innovativ mobil operatoru olan “Nar” abunəçilərini sevindirməyə davam edir. Bütün “Limitsiz İnternet” paketlərinə qoşulan “Nar” abunəçiləri üçün “WhatsApp” pulsuzdur. Hətta meqabaytlar bitdikdən sonra da abunəçi istifadə müddətinin sonuna qədər pulsuz internetdən və “WhatsApp” ilə limitsiz yazışmadan yararlana bilər. Üstəlik, “XL”, “2XL” və “3XL” paketlərində gecələr internet trafiki tam sürətli olmaqla yanaşı, həm də pulsuzdur və paketin meqabaytlarından istifadə edilmir.




Qeyd edək ki, “Nar” abunəçilərə müxtəlif həcmli “Limitsiz İnternet” paketlərdən birini seçmək imkanı verir. İstifadəçilər həm mobil telefonunda, həm də kompüterdə 150 Mb/s-dək sürətdən zövq ala bilərlər. Bundan başqa, sifariş edilən “Limitsiz İnternet” paketin trafiki bitmədiyi halda belə, abunəçi yeni “Limitsiz İnternet” paketi sifariş edə bilər. Bu zaman hər iki paketin meqabaytları cəmlənəcək və ancaq hər paketin trafiki uyğun paketin istifadə müddəti ərzində aktiv olacaq. Aktiv paketlərin istifadə müddəti bitdikdən sonra sonuncu sifariş edilmiş paket yenidən aktivləşəcək. “Nar”-ın “Limitsiz İnternet” paketləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Messi Argentina millisinə nə vaxt qayıdacaq?



“Barselona”nın hücumçusu Lionel Messinin Argentina millisinə qayıdacağı tarix açıqlanıb. Qol.az-ın “Goal.com”a istinadən yaydığı xəbərə görə, 31 yaşlı futbolçu mart ayında Venesuela ilə keçiriləcək yoldaşlıq oyununda yenidən yığmanın formasını geyinəcəyi bildirilib. Görüş İspaniyada, “Atletiko”nun ev oyunlarını keçirdiyi “Vanda Metropolitano” stadionunda olacaq. Qeyd edək ki, Messi sonuncu dəfə ötən ilin yayında Rusiyada keçirilən dünya çempionatının 1/8 finalının Fransa ilə oyununda (3:4) Argentina millisinin formasını geyinmişdi.

## Voleybol üzrə Azərbaycan millisinin Avropa çempionatındakı oyunlarının təqvimi müəyyənləşib




Qadın voleybolçular arasında Avropa çempionatının təşkilatçıları yarışın təqvimini açıqlayıblar. Azərbaycan millisi “C” qrupunda Xorvatiya, Niderland, Macarıstan, Rumıniya və Estoniya yığmaları ilə birgə mübarizə aparacaq.

Voleybolçularımız ilk oyunu avqustun 23-də Xorvatiya komandasına qarşı keçirəcəklər. Millimiz avqustun 25-də Niderland, ertəsi gün Macarıstan, iki gün sonra Estoniya və ayın 29-da isə Rumıniya ilə qarşılaşacaq. Bu qrupun oyunları Macarıstanda təşkil olunacaq.

Qrupda ilk dörd yeri tutan komandalar play-off mərhələsinə vəsiqə qazanacaqlar. Avropa çempionatı avqustun 23-dən sentyabrın 8-dək Türkiyə, Polşa, Macarıstan və Slovakiyada təşkil olunacaq. Qeyd edək ki, 2017-ci il Avropa çempionatına Azərbaycan və Gürcüstan birgə ev sahibliyi edib.

## Neymar “Mançester Yunayted” ilə görüşdə meydana çıxmayacaq?



“Paris Sen-Jermen” klubunun braziliyalı hücumçusu Neymar komandasının UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsi çərçivəsində fevralın 12-də “Mançester Yunayted” ilə görüşündə meydana çıxmaya bilər. Klubun saytına istinadla xəbər verir ki, buna səbəb 26 yaşlı hücumçunun Fransa kuboku uğrunda turnirin onaltıdabir final mərhələsində parislilərin “Strasburq”a qalib gəldiyi (2:0) oyunda zədələnməsidir. Həkimlər Neymarın azı 20 gün forma geyə bilməyəcəyini bildirirlər.

Bu itki komandanın baş məşqçisi Tomas Tüxeli ciddi narahat edib. Almaniyalı 45 yaşlı mütəxəssis bu barədə deyib: “Aparılan ilkin müayinələr zamanı Neymarın sağ ayağının sümüyü zədələnib. Həkimlərimiz Neymarın sağalması üçün əllərindən gələni edəcəklər”. Xatırladaq ki, hücumçu cari mövsümdə “Paris Sen-Jermen”in heyətində 23 oyunda 20 qol vurub.

## “Barselona” yeni transferinə qiymət qoydu: 400 milyon avro!




“Ayaks”ın yarımmüdafiəçisi Frenki De Yonqun “Barselona”ya keçidinin detalları məlum olub. Qol.az-ın “Mundo Deportivo” nəşrinə istinadən yaydığı xəbərə görə, kataloniyalılar transferinə bonuslarla birlikdə 86 milyon avro ödədiyi 21 yaşlı futbolçu ilə 2023-2024 mövsümünün sonuna kimi müqavilə imzalayıb. İspan klubu hollandiyalı oyunçuya 400 milyon avro təzminat qiyməti qoyub.

Qeyd edək ki, De Yonq “Barselona”ya yayda qoşulacaq.

## TƏBRİK EDİRİK!

Nurayı 1 yaşının tamam olması münasibətilə atası Orxan, anası Sevinc, nənəsi Südabə, babası Ağalar, nənəsi Elmira, bibiləri Aytən və Aygün, əmiləri Samir və Qəşəm, xalası Aynur, dayıları Murad və Elnur təbrik edir, ona həyatda can sağlığı və uğur diləyirlər.

*Nuray şirin bir inci,*
*Nənəsinin sevinci.*
*Babasının göyçəyi,*
*Bibilərin çiçəyi.*
*Atanın xəyalıdı,*
*Ananın vüsalıdı.*
*Dayıların qönçəsi,*
*Əmilərin incisi.*

*Nurayın şaqraq səsi,*
*Bir tapıntı-inci, dürr,*
*Hər bir yeni kəlməsi,*
*Hamını əyləndirir.*



## ELAN

Sumqayıt şəhəri Dövlət Yol Polisi tərəfində Əliməmmədova Gültəkin Şıxbala qızının adına verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500